# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 iyun 2026-cı il, cümə
№ 105 (7172)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycanı daha güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik




Bax səh. 2

## Qeyri-neft ixracını stimullaşdıran siyasət

Bax səh. 3

## Azad ərazilərin aqrar potensialı yeni inkişaf mərhələsinə qədəm qoyur



Bax səh. 5

## Yeni regional nizam: sülh Cənubi Qafqaza nə vəd edir?

Bax səh. 4



## "Qafqaz Qartalı-2026"...

Bax səh. 5

## Ombudsmanların Beynəlxalq Bakı Sammiti keçirilib

Bax səh. 4

## ABŞ təmkinli pul siyasəti yürütməkdə davam edir

Bax səh. 6

## İdeyalar aləminə səyahət

Bax səh. 7





## 47 ildən sonra ilk dəfə...

Bax səh. 6

# Azərbaycanı daha güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik

## Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib







İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə birgə foto çəkdirilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra "Qurani-Kərim"dən ayə oxunub. Daha sonra İslam İnkişaf Bankı (IsDB) haqqında videoçarx nümayiş etdirilib. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev İllik Toplantının iştirakçılarını salamlayıb, Azərbaycanda islahatlara verdiyi davamlı dəstəyə, Bankın gələcəyə doğru irəliləməsində planlarına və ölkəmizə səmimi münasibətinə görə sədr doktor Əl-Casirə təşəkkür edib. Dövlət başçısı bildirib ki, Azərbaycan ikinci dəfədir İllik Toplantıya ev sahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir: "2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya ev sahibliyi edən ölkə idik. Həmin İllik Toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu. Bu, milli maraqlara əsaslanan, qlobal səhnədə bütün iştirakçılarla yaxşı münasibətlərin qurulmasına, uğurlu inkişafımıza qəti sadiqliyimizə söykənən siyasətimizin təzahürüdür. Uğurlu inkişaf bir çox meyara əsaslanır. Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki ili istisna etməklə, qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir. Çünki Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektlərdə artıq mühüm iştirakçıya çevrilib".

Prezident qeyd edib ki, müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. "Məsələn, namizədliyimiz müxtəlif təsisatlar üçün namizədlər siyahısında var idi və biz tam mütləq dəstəyi qazandıq. Bu hal bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasına namizəd olduğumuz zaman müşahidə edildi. O vaxt biz 155 ölkənin dəstəyini qazandıq. Bu hal 120 ölkədən ibarət və BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatının sədrliyinə namizəd olduğumuz zaman özünü büruzə verdi. Biz yekdilliklə seçildik və nəinki seçildik, sonradan sədrliyimizin müddəti yekdilliklə uzadıldı. Bütövlükdə, bu, beynəlxalq dəstəyin təzahürü idi. Bəzən "beynəlxalq ictimaiyyət" sözünü eşitdikdə bəziləri düşünür ki, o, inkişaf etmiş ölkələrdən ibarət bir məhdud qrupdur və əgər belə demək olarsa, bu adı özünə seçən ölkələr tərəfindən belə yanaşılır. Lakin bu, yanlış yanaşmadır", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, beynəlxalq ictimaiyyət bütün dünyadan, BMT-yə üzv olan ölkələrdən ibarətdir. Dünyanın tam mütləq əksəriyyətinin dəstəyini qazanmaq, həqiqətən, yalnız bəyanatlar əsasında deyil, praktiki addımlara əsaslanan hörməti göstərir. İslam İnkişaf Bankı Qrupunun 2010-cu ildə keçirdiyi İllik Toplantısından sonra biz bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən ölkə olmuşuq: "Ən sonuncular sırasında əla nəticələrlə seçilən 2024-cü ildə keçirilmiş uğurlu COP29 tədbirini qeyd etmək istərdim. Eyni zamanda, böyük beynəlxalq toplantılardan olan Ümumdünya Şəhərsalma Forumu ötən ay Azərbaycanda uğurla keçirilmişdir. Bir çox digər tədbirlər də gözlənilir. Bir sözlə bu, fəaliyyətimizin şaxələndirilmiş gündəliyini bir daha göstərir. Azərbaycan Avrasiya ölkələrini birləşdirən, xüsusən də enerji təchizat zəncirlərinin etibarlı olmadığı, o cümlədən enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinə çevrilən əsas amillərdən biri hesab edildiyi bir vaxtda onlara lazımi enerjini təchiz edən irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən qlobal sahənin mühüm iştirakçısına çevrilib".

Dövlət başçısı deyib ki, çox müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sahəsinə, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, Xəzərdə hasil olunan qazın Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə milyardlarla vəsaiti cəlb etməyə imkan yaradıb. Bu, həqiqətən böyük səylər diplomatiya, siyasi münasibət, qonşularla yaxşı münasibətlər, qonşuların qonşusu ilə əlaqələr, maliyyələşmə, yaxşı nüfuz və güclü iqtisadiyyat tələb edirdi. Beləliklə, həmin meyarlar toplusu hazırda Azərbaycana mühüm enerji təchizatçılarından birinə çevrilmək imkanı yaradıb. Vurğulanıb ki, bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdədir. Biz təbii qazı 16 ölkəyə nəql edirik. Onların sayı ilbəil artır və artmaqda davam edəcək. Neft təchizatı daha çox ölkələri əhatə edir və bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir. Beləliklə, bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi maneələr baxımından unikaldır: "Biz əsasən infrastruktura sərmayə yatıraraq diqqətimizi təkcə ölkə daxilindəki infrastruktur üzərinə yox, ölkə daxilində olan beynəlxalq əhəmiyyətli infrastruktura cəmlədik. Digər sözlə, biz bildiyiniz kimi, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirməyə, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışdıq. Çünki əlbəttə, coğrafiya önəmlidir. Lakin onun üzərinə infrastrukturu əlavə etməsək böyük bir çəkisi olmur. Odur ki, bu gün Azərbaycandan keçən Şərq-Qərb və Şimal-Cənub dəhlizləri sayı artmaqda olan ölkələr üçün çox önəmli təchizat marşrutlarını təmin edir. Sadəcə, xəritəyə nəzər salsaq görərik ki, Azərbaycan Avropa və Asiyanın arasında yerləşir. Coğrafi yerləşmə, əlbəttə ki, gündəlikdən asılı olaraq başağrısı da ola bilər, üstünlük də ola bilər. Bizə gəldikdə bu, təkcə bizim üçün yox, bir çox ölkələr üçün üstünlükdür. Bu gün artıq qeyd etdiyim kimi, Azərbaycandan keçən dəhlizlər bir çox ölkələr üçün əlaqələndirilmiş və koordinasiya olunmuş nəqliyyat vətərini yaradır. Əlbəttə ki, bir çox işlər görülməlidir və yeri gəlmişkən, bu, bizim prioritetlərimizdən biridir".

Prezident qeyd edib ki, Azərbaycanın iqtisadi inkişafı müsbətdir və iqtisadiyyat sabitdir. Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik. Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır: "Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir. Biz bu barədə 16 il bundan əvvəl Bakıda keçirilmiş İslam İnkişaf Bankının İllik Toplantısında danışdıq və o vaxtdan bəri biz dəyişmişik. Bu gün qeyri-neft və qaz sektorunun ÜDM-də payı 70 faizdən artıqdır ki, bu da özlüyündə əlamətdar bir nailiyyətdir. Lakin biz ixracımızda neft, qaz və qeyri-neft və qaz sektorunun balansının dəyişdirilməsini davam etdirmək üçün gərgin çalışmalıyıq. Bu gün ixracımızın mütləq əksəriyyətini enerji resursları təşkil edir. Beləliklə, biz vəziyyəti dəyişmək üçün çox gərgin çalışırıq və bunun üçün əlbəttə ki, bizə daha çox islahatlar, daha çox investisiyalar və yeni bazarlar lazımdır və bu da problemdir. Çünki bazarlar uğrunda, mən belə deyərdim, çox fəal mübarizə gedir. Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır, lakin biz, əlbəttə ki, davam etməliyik".




Dövlət başçısı vurğulayıb ki, biz xarici borcumuzu azaltmağa nail olduq. "Bu, mənim tərəfimdən bir neçə il bundan əvvəl qarşıya qoyulmuş bir hədəf idi və biz buna nail olduq və hətta planlaşdırdığımızdan artığına nail olduq. Bu gün xarici borcumuz ÜDM-in yalnız 6 faizini təşkil edir, odur ki, biz yenidən borc götürməyə başladıq. Fasilə yaranmışdır, lakin biz yenidən borc götürməyə başladıq və əlbəttə ki, bizim müraciət etdiyimiz birinci maliyyə institutu İslam İnkişaf Bankı idi. Çünki bizim bu Bankla güclü əlaqələrimiz, ortaq tariximiz və çox məhsuldar, konstruktiv münasibətlərimiz var. Toplantı zamanı yeni infrastruktur layihələrinə təkan vermək üçün bir çox müqavilələr imzalanacaq və onlar da, öz növbəsində, qeyri-neft sektorunun dəyərinin artmasına gətirib çıxaracaqdır. Beləliklə, xarici borcun aşağı səviyyədə olması, əlbəttə ki, böyük üstünlükdür. Biz daha çox borc götürə bilərik, lakin bunu çox ehtiyatla edəcəyik. Buna baxmayaraq, bizim xarici valyutada olan ehtiyatlarımız xarici borcumuzu demək olar ki, 20 dəfə üstələyir. Hesab edirəm ki, bu göstəriciyə görə Azərbaycan çox sabit maliyyə vəziyyəti, balanslaşdırılmış büdcəsi olan aparıcı ölkələrdən biridir və bu hal reytinqimizi investisiya reytinqinə qaldıran "Moody's" və "Fitch" kimi aparıcı reytinq agentlikləri tərəfindən dəyərləndirilir. Onların verdiyi proqnoz müsbət və sabitdir. Beləliklə, iqtisadi inkişafımızla bağlı hər hansı bir çətinlik görmürük və irimiqyaslı sosial proqramlarımız da buna uyğundur", - deyən Prezident İlham Əliyev bildirib ki, ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik. Yoxsulluğun və işsizliyin azaldılması da hədəflərimizdən biri idi və biz buna uğurla nail olduq. Bu gün yoxsulluğun və işsizliyin səviyyəsi təqribən 5 faiz təşkil edir. Məşğulluqla bağlı olan məsələlər əhalisi artmaqda olan istənilən digər ölkə kimi, bizim də diqqətimizin mərkəzində olacaq. Çünki əhali artdığı zaman, - təəssüf ki, müsəlman ölkələrində bu tendensiyanın davam etdiyini hamımız bilirik, - bunun, eyni zamanda, özü ilə bir çox çağırışlar gətirdiyini də bilirik: "Çünki siz iş yerləri yaratmalısınız, daha çox sosial infrastruktur və ümumiyyətlə, infrastruktur qurmalısınız. Beləliklə, bu məsələ - işsizlik səviyyəsinin çox aşağı səviyyədə saxlanılması həmişə diqqət mərkəzində olacaq. Əlbəttə ki, 2010-cu ildə keçirdiyimiz toplantıdan bəri baş vermiş əsas dəyişikliklərdən biri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal edilmişdir və bu da humanitar fəlakətə yol açmışdır. 1990-cı illərin əvvəllərində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O vaxt əhalimiz 8 milyon idi, beləliklə, hər səkkiz nəfərdən biri məcburi köçkün, evsiz, işsiz, yaşamaq üçün heç bir maddi imkanı olmayan idi. Bu, həqiqi humanitar fəlakət idi və biz tək qalmışdıq. Müharibə cinayətlərini və Xocalı soyqırımını törətmiş, bizim şəhər və kəndlərimizi dağıtmış, işğal olunmuş ərazilərdə urbisid törətmiş Ermənistana qarşı sanksiya tətbiq olunmadı. Hər gün sanksiyalardan danışılır - sanksiyalar və yenə də sanksiyalar. Haradasa hər hansı bir hadisə baş verən kimi dərhal sanksiyalar tətbiq olunur. Lakin Ermənistana qarşı heç kəs sanksiyalar tətbiq etmədi və bu, ikili standartların, həmçinin bəyan edilən qondarma dəyərlərlə real siyasət arasındakı fərqin açıq təzahürüdür. Əgər beynəlxalq hüququ pozduğuna, suveren dövlətin ərazilərini işğal etdiyinə və müharibə cinayətləri törətdiyinə görə Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, iki ölkə arasında münaqişə bu qədər uzun sürməzdi. Bu münaqişə təxminən 30 il davam etdi və bu illər ərzində çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıq raundları aparıldı. Həmin danışıqlara himayədarlıq edənlərin yalnız bir məqsədi var idi - torpaqlarımızı əbədi olaraq Ermənistanın işğalı altında saxlamaq. Sülhün təmin edilməsi və ərazilərimizin azad olunması mandatını daşıyanların məqsədi məhz bundan ibarət idi. Mən ATƏT-in Minsk qrupunun həmsədrlərini - BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü olan Fransanı, Rusiyanı və Amerika Birləşmiş Ştatlarını nəzərdə tuturam. Təsəvvür edin, bu ölkələr Ermənistanı Azərbaycan ərazilərini azad etməyə məcbur edə bilməzdilərmi? Əlbəttə ki, edə bilərdilər. Sadəcə bunu istəmirdilər. Onlar torpaqlarımızın Ermənistanın işğalı altında qalmasını istəyirdilər. Bu, onların birgə qərarı idi. Lakin biz bu planları dəyişdirdik".

Prezident vurğulayıb ki, danışıqlar prosesinin ilkin mərhələsində böyük ümidlərimiz var idi: "Mən 2003-cü ildən Prezident kimi fəaliyyət göstərirəm və 17 il ərzində, dediyim kimi, sonradan nəticəsiz olduğu aydın olan bu danışıqlarda iştirak etdim, sülh yolu ilə həll variantı tapmağa və böyük dövlətləri həqiqətin bizim tərəfimizdə olduğuna inandırmağa çalışdım. Biz deyirdik: "Haqq bizim tərəfimizdədir. Biz işğala məruz qalmışıq. Xəritəyə baxın, Ermənistan silahlı qüvvələrinin bizim ərazilərimizdə harada yerləşdiyini görün". Bunun müqabilində isə yalnız bir cavab alırdıq: "Gedin razılaşın". Sonra deyirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Daha sonra bildirirdilər ki, siz müharibəyə başlaya bilməzsiniz. Həmçinin xəbərdarlıq edirdilər ki, əgər müharibəyə başlasanız, sanksiyalarla üzləşəcəksiniz. Bu cür çoxsaylı başqa mesajlar verilirdi, sadəcə vaxtınızı çox almaq istəmirəm. Beləliklə, dünya siyasətində qərar verən qüvvələrin torpaqlarımızın qeyri-qanuni şəkildə əbədi işğal altında qalmasına qərar verdiyini anladığımız zaman, biz öz qərarımızı verdik və bütün planları dəyişdirdik. 2020-ci ildə torpaqlarımızın azad olunması uğrunda müharibə 44 gün davam etdi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Biz işğal altında olan ərazilərimizin böyük hissəsini azad etdik, lakin hamısını yox. Daha sonra - 2023-cü ildə bu məsələyə tam və qəti nöqtə qoyduq. Bu gün Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə bərpa olunub və bu, bütün dünya tərəfindən qəbul edilib. Bundan sonra isə biz Ermənistana sülh təklif etdik. İşğaldan və dağıntılardan əziyyət çəkmiş qalib ölkə, qalib xalq olaraq sülh təşəbbüsü ilə çıxış edən tərəf məhz biz olduq. Bu gün isə artıq sülh reallığa çevrilib".

Prezident onu da vurğulayıb ki, artıq təxminən bir ilə yaxındır ki, biz sülh şəraitində yaşayırıq və bunun müsbət nəticələrini görürük. Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu, kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır: "Ərazilərimizi azad etdikdən dərhal sonra genişmiqyaslı bərpa və yenidənqurma proqramına başladıq. Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır. Hazırda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bunlara su anbarları, su kanalları, elektrik stansiyaları, artıq istifadəyə verilmiş beynəlxalq hava limanları, tunellər və körpülər daxildir. Azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bizim səylərimizi dəstəklədiyinə görə İslam İnkişaf Bankı Qrupuna minnətdarıq. Bu gün bu məsələ hökumətimizin əsas prioritetlərindən biridir, lakin yeganə prioritet deyil. Əminəm ki, Qrup çərçivəsində aparılan müzakirələr zamanı bu mövzular geniş şəkildə nəzərdən keçirilib".

Prezident İlham Əliyev gələcəyə dair bir neçə prioritet istiqaməti xüsusi vurğulayıb. Bildirib ki, onlardan biri bağlantıdır. Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14-15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır: "Ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız da tam aydındır. Kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmağı planlaşdırırıq. Suvarma sahəsinə gəldikdə, İslam İnkişaf Bankının su kanalları və su anbarlarının tikintisinə verdiyi dəstək sayəsində fermerlər su ehtiyatlarına daha geniş çıxış əldə edəcəklər və məhsuldarlıq əhəmiyyətli dərəcədə artacaq. Bərpaolunan enerji də böyük potensiala malik sahələrdən biridir. Artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 giqavat həcmində Günəş və külək enerjisi istehsal gücü qazandıracaq. Bu, minimum göstəricidir. Söhbət niyyət protokollarından deyil, artıq imzalanmış konkret müqavilələrdən gedir və bu rəqəm gələcəkdə daha da artacaq. Hazırda biz ötürücü xətlərin yaradılması və enerji ixracı istiqamətində çalışırıq, çünki qeyd etdiyim kimi, bu qədər enerjiyə ehtiyacımız olmayacaq. Buna görə də enerjiyə ehtiyacı olan bazarlara, ilk növbədə, Avropaya enerji ötürülməsini təmin edəcək infrastruktur üzərində işləyirik. Hamıya məlumdur ki, Avropanın uzun illər ərzində elektrik enerjisinə böyük ehtiyacı olacaq. Bütün bunlar, həmçinin bir çox digər istiqamətlər strateji prioritetlərimiz sırasında yer alır. Əminəm ki, planlarımızın böyük hissəsi artıq auditoriyanın diqqətinə çatdırılıb. Vaxtınızı çox almaq istəmirəm. Bir daha Azərbaycanı ev sahibi ölkə kimi seçdiyinizə, bizimlə bir yerdə olduğunuza və göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirir".








Tədbirdə İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış ediblər. Daha sonra tədbirdə "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsi üzrə Çərçivə (Kredit) sazişi, "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsi üzrə Qrant Sazişi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikası üçün Üzv Ölkə Tərəfdaşlıq Strategiyasının hazırlanmasına dair Anlaşma Memorandumu" imzalanıb.

# "Sumqayıt Yeni Tullantı Sutəmizləyici Qurğunun tikintisi" layihəsi üzrə saziş...

## Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib











Azərbaycan Prezidenti İlham Əliyev iyunun 18-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Beynəlxalq İnkişaf üzrə OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Afrikada İqtisadi İnkişaf üzrə Ərəb Bankının prezidenti Abdulla Xəlil Əl-Müseybih, Ərəb Valyuta Fondunun Baş direktoru və İdarə Heyətinin sədri Fəhad Əl-Türki, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdürrəhman Əl-Mərşad, Ərəb Körfəzi İnkişaf Proqramının icraçı direktoru Həmmam bin Nasir bin Cureyd, Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun əməliyyat direktoru Tamer Əl-Failakavi, Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri Məhəmməd Abdulla Əl-Cadan, Küveyt Dövlətinin maliyyə naziri Yaqub Ər-Rifai, Qətər Dövlətinin maliyyə naziri Əli Əhməd Əl-Kuvari və Birləşmiş Ərəb Əmirlikləri Maliyyə Nazirliyinin beynəlxalq maliyyə əlaqələri üzrə nazir müavini Əliabdulla Şərəfi daxildir.

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərinin İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında iştirakının əhəmiyyətini qeyd edib.

Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında fəal əməkdaşlığın qurulduğunu deyən Prezident İlham Əliyev bir çox layihələrin icra mərhələsində olduğunu vurğuladı. Dövlətimizin başçısı imzalanacaq sənədlərin önəminə də toxunub.

Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir qəbula görə nümayəndə heyəti adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsinə dövlətimizin başçısının göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında tərəfdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb, ölkəmizdə mövcud olan əlverişli investisiya mühitinin Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlarla birgə layihələr həyata keçirmək baxımından əhəmiyyəti qeyd edilib.

Görüşdən sonra Azərbaycan Prezidentinin iştirakı ilə "Sumqayıt Yeni Tullantı Sutəmizləyici Qurğunun tikintisi" layihəsi üzrə Kredit sazişi imzalanıb. Həmçinin imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Ərəb Koordinasiya Qrupu üzvləri arasında "Abşeron yarımadasında 33 yaşayış məntəqəsinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi üzrə əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu" mübadilə olunub.

Daha sonra dövlətimizin başçısı İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirə "Dostluq" ordenini təqdim edib.

Məhəmməd Süleyman Əl-Casir onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Qeyd edək ki, Məhəmməd Süleyman Əl-Casir ölkəmizlə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən bu ordenlə təltif olunub.

# Qeyri-neft ixracını stimullaşdıran siyasət

## Sahibkarların ödədikləri gömrük rəsmiləşdirilməsi yığımlarının bir hissəsini dövlət ödəyəcək



Prezident İlham Əliyevin imzaladığı "Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq fərmana əsasən, mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və qeyri-neft-qaz mallarının ixracının dəstəklənməsi nəzərdə tutulur. Fərmana əsasən, Azərbaycan mənşəli qeyri-neft məhsullarını ixrac edən mikro, kiçik və orta sahibkarlar ixrac zamanı ödədikləri gömrük rəsmiləşdirilməsi yığımlarının bir hissəsini dövlət hesabına geri ala biləcəklər. Belə ki, Azərbaycan mənşəli qeyri-neft-qaz mallarının ixrac gömrük proseduru altında yerləşdirilməsi zamanı mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçılar tərəfindən ödənilmiş gömrük rəsmiləşdirilməsi üzrə gömrük yığımlarına görə, həmin malların növündən və ixrac olunduğu ölkədən asılı olaraq, dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya ödəniləcək.

**İxrac xərclərinə görə kompensasiya 2027-2031-ci illərdə ödəniləcək**

İxrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi rüb ərzində ixrac gömrük proseduru altında yerləşdirilmiş ölkə mənşəli qeyri-neft-qaz mallarına görə mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçının müraciəti əsasında həmin rüb bitdikdən sonra İqtisadiyyat Nazirliyi tərəfindən ödəniləcək. İxrac olunan malların Azərbaycan mənşəli olması mənşə sertifikatı əsasında müəyyən ediləcək. İxrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi faktiki ixrac olunmuş mallara görə müəyyənləşəcək. İxrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin tətbiq olunduğu müddətdə qeyri-neft-qaz mallarının ixracına münasibətdə gömrük nəzarətinin həyata keçirilməsinə, gömrük müşayiətinə və malların saxlancına görə gömrük yığımlarının məbləğinin artırılmasına yol verilməyəcək. Nazirlər Kabineti 2027-2031-ci illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin edəcək.

Dövlət başçısının fərmanı ixracın dəstəklənməsi üçün yeni maliyyə mexanizminin hüquqi əsasını yaradır. Bu addım qeyri-neft ixracının artırılması, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin gücləndirilməsi və ixracatçıların xərclərinin azaldılması baxımından əhəmiyyətli qərar kimi qiymətləndirilə bilər. İxrac kompensasiyası ilə bağlı konkret məhsulları, ölkələri və kompensasiya məbləğləri müvafiq qurumların 3 ay müddətində hazırlayacağı siyahıya əsasən müəyyən ediləcək. Belə ki, növbəti mərhələdə hansı qeyri-neft məhsullarının dəstək alacağı, hansı ölkələrə ixrac zamanı kompensasiya veriləcəyi, bir bəyannamə üzrə maksimum dəstək məbləğinin nə qədər olacağı, müraciət və ödəniş mexanizminin necə işləyəcəyi müəyyənləşəcək.

**Ötən il qeyri-neft ixracı 3,6 milyard dollara çatıb**

Azərbaycanın müasir inkişaf modelində prioritet istiqamətlərindən biri qeyri-neft ixracının təşviqi və ixracın çeşid və coğrafiyasının genişləndirilməsidir. Bu siyasət son illərdə öz müsbət təsirlərini göstərməkdədir. 2025-ci ildə ölkəmizin qeyri-neft-qaz ixracı 3,6 milyard dollar təşkil edib. Bu, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz artım deməkdir. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 18,4 faiz artaraq 1,2 milyard dollara bərabər olub. İxrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 24,2 faiz, pambıq iplik 19,3 faiz, kimya sənayesi məhsulları 8 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb. Ötən il aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard dollar, aqrar-sənaye məhsulları üzrə isə 314,7 milyon dollara bərabər olub.

Ötən il qeyri-neft sektoruna aid malların ixracında qızıl ( 326,2 milyon dollar) birinci, pomidor (192,5 milyon dollar) ikinci, karbamid (170,8 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, qeyri-neft və qaz ixracı 2026-cı ilin ötən dövründə də müşahidə edilib. Cari ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,6 faiz artaraq 1,5 milyard dollar təşkil edib. Bu dövr ərzində ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,2 dəfə pambıq iplik 2,4 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 57 faiz, alüminium və ondan hazırlanan məmulatlar 44,6 faiz, pambıq lifi 25 faiz, meyvə-tərəvəz 18,6 faiz, çay 16,8 faiz, spirtli və spirtsiz içkilər isə 6 faiz artıb. Bu dövrdə aqrar məhsullar üzrə ixrac 25,2 faiz artaraq 414,5 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 39 faiz artaraq 160,5 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 28,8 faiz artaraq 575,1 milyon dollara bərabər olub.

**"Azexport" - qeyri-neft ixracının elektron platforması...**

Azərbaycanın ixrac imkanlarının artmasında "Azexport" portalı da mühüm yer tutur. 10 ilə yaxındır ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. "Azexport", həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir. "Azexport" artıq ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.



"Azexport" portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə portal "Made in Azerbaijan" məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. "Made in Azerbaijan" brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlanılıb. "Azexport" Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən "Alibaba.com", "eBay.com", "Wholesale", "Amazon", "All.biz" kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəçiyə çevrilib.

**İxracatçıların xaricdəki məkanı - Ticarət Evləri**

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycan ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin və Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirərək və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistik mərkəzlərin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynamaqdadır.

**"Milli ixrac strategiyası" - qeyri-neft ixracının hədəf xəritəsi**

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd-"Milli ixrac strategiyası" hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracının 5-7 milyarda qədər çatdırılması nəzərdə tutulur. Bu məqsədlərə çatmaq üçün xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi planlaşdırılır. Eləcə də iri şirkətlərin və nüfuzlu investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə, ələlxüsus da bərpa olunan enerji sahələrinə cəlbi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi strategiyanın əsas prioritetləri sırasında yer alır.

*E.CƏFƏRLİ*

# Yeni regional nizam: sülh Cənubi Qafqaza nə vəd edir?

## Azərbaycanın yaratdığı geosiyasi reallıqlar fonunda əməkdaşlıq, inteqrasiya və davamlı inkişaf perspektivləri

2020-ci ildə baş vermiş Vətən müharibəsi yalnız Azərbaycanın hərbi-siyasi qələbəsi ilə yekunlaşmadı, həm də bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdirdi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bununla da regionda uzun illər davam edən münaqişə mərhələsi arxada qaldı və yeni inkişaf dövrünün təməli qoyuldu. Müharibədən sonrakı mərhələdə formalaşan reallıqlar təkcə Azərbaycan üçün deyil, bütün region ölkələri üçün yeni imkanlar yaratdı. Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, Bakı əldə etdiyi hərbi-siyasi üstünlüyü revanşizm və qarşıdurma siyasətinə deyil, əməkdaşlıq və qarşılıqlı faydalı münasibətlər sisteminin qurulmasına yönəltdi.

Müharibədən sonrakı dövrdə Azərbaycanın irəli sürdüyü təşəbbüslər, xüsusilə nəqliyyat-kommunikasiya xətlərinin açılması, regional inteqrasiyanın dərinləşdirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı layihələr yeni regional düzənin əsas konturlarını formalaşdırdı. Bu baxımdan Zəngəzur dəhlizi (TRİPP) ideyası yalnız bir nəqliyyat layihəsi deyil, həm də region ölkələrini bir-birinə bağlayan strateji inkişaf konsepsiyası kimi çıxış edir. Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilən bu layihə Şərq ilə Qərbi, həm də Şimal ilə Cənubu inteqrasiya yolu ilə birləşdirən mühüm logistika xəttinə çevrilmək potensialına malikdir.

Bu gün Cənubi Qafqaz tarixi dönüş nöqtəsində dayanır. Uzun illər münaqişələrin, siyasi gərginliyin və qarşılıqlı etimadsızlığın hökm sürdüyü region artıq əməkdaşlıq, iqtisadi inteqrasiya və sabit inkişaf imkanları ilə üz-üzədir. Dünya miqyasında nəqliyyat marşrutlarının və ticarət əlaqələrinin yenidən formalaşdığı bir dövrdə Cənubi Qafqazın strateji əhəmiyyəti daha da artır. Məhz buna görə də bölgədə yaranmış yeni reallıqların düzgün qiymətləndirilməsi və davamlı sülhün təmin olunması gələcək inkişaf üçün həlledici əhəmiyyət daşıyır. Azərbaycanın həyata keçirdiyi siyasət göstərir ki, regionun rifahı yalnız qarşıdurma səhifəsinin bağlanması və əməkdaşlıq mühitinin möhkəmləndirilməsi ilə mümkündür.

### Yeni münasibətlər sistemi nə vəd edir?

2020-ci ildən sonra formalaşmağa başlayan yeni regional münasibətlər sistemi Cənubi Qafqaz üçün tamamilə fərqli perspektivlər açır. Uzun illər ərzində bölgənin inkişafına mane olan münaqişə faktoru aradan qalxdıqca, iqtisadi inteqrasiya və qarşılıqlı əməkdaşlıq imkanları ön plana çıxır. Azərbaycanın postmüharibə dövründə nümayiş etdirdiyi konstruktiv yanaşma, revanşizmə deyil, sülhə və əməkdaşlığa üstünlük verməsi regionda yeni siyasi atmosfer yaradıb. Bu yanaşma həm region dövlətlərinin, həm də beynəlxalq tərəfdaşların maraqlarına cavab verir.

Yeni münasibətlər sisteminin əsas xüsusiyyətlərindən biri iqtisadi əməkdaşlığın siyasi münasibətlərə müsbət təsir göstərməsidir. Müasir dünyada davamlı inkişafın əsas şərtlərindən biri regional inteqrasiyadır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri region ölkələrinin iqtisadi potensialını artırmaqla yanaşı, onları qlobal iqtisadi sistemin mühüm iştirakçılarına çevirir. Bu layihələr vasitəsilə Avropa, Asiya və Yaxın Şərq arasında yeni ticarət marşrutları formalaşır ki, bu da Cənubi Qafqazın geoiqtisadi əhəmiyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

Vurğulandığı kimi, Zəngəzur dəhlizi (TRİPP) bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Layihənin reallaşması Azərbaycanı Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa birləşdirməklə yanaşı, regionda yeni iqtisadi imkanlar yaradacaq. Eyni zamanda Ermənistan da bu prosesdən faydalanmaq imkanı əldə edəcək. Uzun illər regional layihələrdən kənarda qalan Ermənistan yeni kommunikasiya xətlərinə qoşulmaqla iqtisadi canlanma əldə edə, yeni bazarlara çıxış imkanlarını genişləndirə bilər. Beləliklə, yeni münasibətlər sistemi qalib və məğlub anlayışlarından daha çox, qarşılıqlı fayda və ortaq maraqlar prinsipi üzərində qurulur.

Digər tərəfdən, yeni regional nizam beynəlxalq investorların diqqətini də bölgəyə cəlb edir. Sabitlik və təhlükəsizlik mühiti gücləndikcə xarici investisiyalar üçün daha əlverişli şərait formalaşır. Bu isə yeni iş yerlərinin açılması, infrastrukturun inkişafı və ümumi rifah səviyyəsinin yüksəlməsi deməkdir. Nəticə etibarilə, Azərbaycanın təşəbbüsü ilə formalaşan yeni münasibətlər sistemi regionu münaqişə məkanından əməkdaşlıq məkanına çevirmək potensialına malikdir.





### Ən vacib şərt sülhdür

Bütün iqtisadi layihələrin, inteqrasiya təşəbbüslərinin və əməkdaşlıq planlarının uğurla həyata keçirilməsi üçün əsas şərt davamlı və etibarlı sülhün təmin olunmasıdır. Müharibədən sonra yaranmış yeni reallıqlar region üçün böyük imkanlar açsa da, bu imkanların tam şəkildə reallaşdırılması yalnız sülh müqaviləsinin imzalanması ilə mümkündür. Sülh olmadan iqtisadi potensialın tam istifadəsi, investisiyaların cəlb olunması və regional inteqrasiyanın dərinləşdirilməsi çətinləşir.

Ermənistanın Azərbaycanla yekun sülh sazişi imzalaması təkcə iki ölkə arasında münasibətlərin normallaşması deyil, həm də bütün Cənubi Qafqazın gələcəyi üçün mühüm addım olacaq. Bu addım regionun uzun illər istifadəsiz qalmış iqtisadi potensialını üzə çıxara bilər. Azərbaycanın uzunmüddətli və ardıcıl xarici siyasət kursu nəticəsində formalaşmış beynəlxalq tərəfdaşlıq şəbəkəsi region dövlətləri üçün yeni imkanlar yaradır. Ermənistan da bu prosesə qoşulmaqla iqtisadi və siyasi baxımdan yeni inkişaf mərhələsinə qədəm qoya bilər.

Sülh şəraitində Ermənistan Mərkəzi Asiya ölkələri ilə daha geniş ticarət əlaqələri qurmaq, Türkiyə üzərindən Avropa bazarlarına çıxış əldə etmək və regional layihələrdə iştirak etmək imkanı qazanacaq. Eyni zamanda Körfəz ölkələri, Asiya bazarları və Qlobal Cənub istiqamətində yeni iqtisadi əlaqələrin qurulması perspektivləri meydana çıxacaq. Bütün bunlar Ermənistanın uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilə bilər.

Lakin bunun üçün ilk növbədə siyasi iradə nümayiş etdirilməlidir. Regionda yeni dövrün tələblərinə uyğun davranmaq, keçmişin qarşıdurma siyasətindən imtina etmək və beynəlxalq hüququn prinsiplərinə hörmət göstərmək vacibdir. Qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınması, münasibətlərin normallaşdırılması və hüquqi əsasların formalaşdırılması sülh prosesinin uğurunu müəyyən edən əsas amillərdir. Bunun üçün isə Ermənistan mütləq şəkildə Konstitusiyasanda yer alan Azərbaycana qarşı əsassız iddialardan geri çəkilməlidir. Məhz bu halda Cənubi Qafqaz sabitlik, rifah və inkişaf məkanına çevrilə bilər.

### Əməkdaşlıq həm də sabitlik deməkdir

Tarix göstərir ki, iqtisadi əməkdaşlıq və qarşılıqlı əlaqələr regional sabitliyin qorunmasının ən effektiv vasitələrindən biridir. Dövlətlər arasında iqtisadi əlaqələr nə qədər güclü olarsa, qarşıdurma ehtimalları da bir o qədər azalır. Bu baxımdan Cənubi Qafqazda əməkdaşlıq imkanlarının genişlənməsi bölgənin təhlükəsizlik mühitinə mühüm töhfə verə bilər. Müharibədən sonrakı dövrdə yaranan yeni geosiyasi vəziyyət region dövlətlərini əməkdaşlığa sövq edən əsas amillərdən biri kimi çıxış edir.

Azərbaycanın həyata keçirdiyi enerji və nəqliyyat layihələri artıq uzun illərdir ki, beynəlxalq əhəmiyyət daşıyır. Bu layihələr təkcə iqtisadi fayda gətirmir, eyni zamanda müxtəlif ölkələri ortaq maraqlar ətrafında birləşdirir. Bu gün Avropanın enerji təhlükəsizliyində Azərbaycanın mühüm rol oynadığı danılmaz faktdır. Eyni zamanda nəqliyyat-logistika marşrutlarının inkişafı regionu beynəlxalq ticarət şəbəkəsinin vacib halqasına çevirir. Belə şəraitdə sabitliyin qorunması yalnız regional deyil, həm də qlobal əhəmiyyət kəsb edir.

Qeyd edilən beynəlxalq aktorların regiona marağının artması da məhz bu amillərlə bağlıdır. Cənubi Qafqaz artıq yalnız siyasi münaqişələr kontekstində deyil, iqtisadi imkanlar və strateji potensial baxımından qiymətləndirilir. Alternativ enerji marşrutları, Orta Dəhliz layihəsi və yeni logistika imkanları dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda regionun əhəmiyyətini daha da artırır. Bu isə bölgədə sabitliyin və təhlükəsizliyin qorunmasını prioritet məsələyə çevirir.

Əməkdaşlığın genişlənməsi xalqlar arasında etimadın formalaşmasına da xidmət edir. Uzunmüddətli sülh yalnız siyasi sənədlərlə deyil, iqtisadi və humanitar əlaqələrin inkişafı ilə möhkəmlənə bilər. Buna görə də əməkdaşlıq yalnız iqtisadi inkişaf vasitəsi deyil, həm də təhlükəsizlik və rifahın təminatçısı kimi çıxış edir.

### Rifahın əsas dayağı...

Bəli, sabitlik regionun rifahının əsas dayağıdır. Cənubi Qafqazda da bu tendensiya artıq müşahidə olunmaqdadır. Region ölkələri arasında əməkdaşlıq imkanlarının genişlənməsi iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərir. Bu amil regionun beynəlxalq sistemdə daha fəal rol oynamasına və potensialını tam reallaşdırmasına imkan yaradır.

***Pərviz SADAYOĞLU***

# Ombudsmanların Beynəlxalq Bakı Sammiti keçirilib

"Süni intellekt dövründə insan hüquqları: İmkanlar, risklər və məsuliyyətlər" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Sammitinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin Ombudsmanların Beynəlxalq Bakı Sammiti iştirakçılarına ünvanladığı müraciət ədliyyə naziri Fərid Əhmədov tərəfindən səsləndirilib.




Daha sonra Azərbaycanda insan hüquqlarının mühafizəsi istiqamətində görülən işlərlə bağlı videoçarx nümayiş etdirilib.

Çıxış edən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul olunan dövlət proqramları və strateji sənədlər ölkəmizdə süni intellekt texnologiyalarının təhlükəsiz, etik, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqini təşviq edir. Həmçinin rəqəmsal iqtisadiyyatın inkişafına, dövlət xidmətlərinin səmərəliliyinin artırılmasına, rəqəmsal bərabərliyin və inklüzivliyin gücləndirilməsinə xidmət edir.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev müasir dövrdə rəqəmsal texnologiyalar və süni intellekt sistemlərinin sürətli inkişafının ictimai münasibətlərin mahiyyətinə əhəmiyyətli təsir göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, süni intellekt artıq yalnız texnoloji yenilik deyil, dövlət idarəçiliyinin, iqtisadi münasibətlərin, informasiya təhlükəsizliyinin, məhkəmə fəaliyyətinin və insan hüquqlarının həyata keçirilməsi mexanizmlərinin ayrılmaz elementinə çevrilib.

Milli Məclis sədrinin müavini Musa Qasımlı Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində qanunvericilik bazasının davamlı olaraq təkmilləşdirildiyini vurğulayıb. O qeyd edib ki, Azərbaycanda ölüm cəzası Ümummilli Lider Heydər Əliyevin müraciəti ilə 1998-ci ildə Milli Məclisin qəbul etdiyi qanun əsasında tamamilə ləğv edilib. Bu qərar insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlardan biri olub. Hazırda isə qlobal miqyasda baş verən mürəkkəb geosiyasi proseslər və təlatümlər fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının qorunması sahəsində sabitlik və təhlükəsizlik nümunəsi kimi çıxış edir.

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının icraçı direktoru Hadi Bin Əli Əl-Yami bildirib ki, süni intellekt insan ünsiyyətini və həmrəyliyi gücləndirən bir vasitə olmalı, xalqlar və mədəniyyətlər arasında körpü rolunu oynamalıdır. O, cəmiyyətlərin təməlini təşkil edən insani münasibətləri əvəz etməməlidir. "Azərbaycan Respublikasına hazırkı səfərim zamanı isə ölkənin rəqəmsal transformasiya və ədliyyə sisteminin modernləşdirilməsi sahəsində əldə etdiyi mühüm nailiyyətlərlə tanış olmaq məni sevindirdi", - deyə icraçı direktor vurğulayıb.

Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansının (GANHRI) sədri Amina Buayaş Sammitin açılış mərasiminə göndərdiyi videomüraciətdə qeyd edib ki, bütün dünyada



texnoloji innovasiyalar vətəndaşların informasiyaya çıxışını, öz hüquqlarından istifadə üsullarını, ictimai müzakirələrdə iştirakını, ünsiyyət formasını və gündəlik fəaliyyətini köklü şəkildə dəyişdirir. "Bununla yanaşı, bu gün hətta aparıcı texnologiya şirkətlərinin və süni intellekt tərtibatçılarının özləri də bu texnologiyaların onların səmərəli tənzimlənməsi və insan hüquqlarının etibarlı müdafiəsi üçün zəruri olan hüquqi çərçivələrdən daha sürətlə inkişaf etməsi ilə bağlı artan narahatlıqlarını ifadə edirlər", - deyə GANHRI sədri vurğulayıb.

Qeyd edək ki, Ombudsmanların Beynəlxalq Bakı Sammiti çərçivəsində "Rəqəmsal məkanda hüquqların qorunması: məlumatların mühafizəsi, məxfilik və dezinformasiyaya qarşı mübarizə", "Süni intellektin əmək bazarına və məşğulluğa təsiri", "Rəqəmsal savadlılıq və insan hüquqlarının qorunması" mövzuları ətrafında müzakirələr aparılıb.

# Azad ərazilərin aqrar potensialı yeni inkişaf mərhələsinə qədəm qoyur



Azərbaycanda əhalinin təxminən yarısının regionlarda yaşaması nəzərə alınmaqla ölkədə kənd təsərrüfatının inkişafı yalnız iqtisadi məsələ kimi deyil, eyni zamanda, milli təhlükəsizliyin vacib tərkib hissəsi, sosial rifah, məşğulluq və regional inkişafın əsas istiqamətlərindən biri kimi qəbul edilir. Bir qədər bundan əvvəl Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə ifadə etdiyi fikirlər belə qənaətə gəlməyə əsas verir ki, dövlət hazırkı strateji mərhələdə aqrar sektoru keyfiyyətcə yeni inkişaf səviyyəsinə qaldırmaqda israrlıdır. Dövlət başçısının təsdiqlədiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkənin ərzaq təhlükəsizliyi, regional inkişaf, ixrac potensialının artırılması və kəndlərin sosial-iqtisadi dirçəlişi baxımından strateji əhəmiyyət daşıyan mühüm sənəd kimi qiymətləndirilir.

Onu da vurğulamaq yerinə düşər ki, ölkəmizdə aqrar sektorun inkişafı ilə bağlı yeni hədəflərin müəyyənləşdirilməsi yalnız daxili amillərdən qaynaqlanmır. Bunu həm də qlobal ərzaq bazarında müşahidə edilən çətin vəziyyət, təchizat zəncirinin pozulması və getdikcə intensivləşən iqlim dəyişmələri şərtləndirir. İndiki arzuolunmaz xarici amillər fonunda hər bir ölkə özünün daxili istehsalını qorumaqla bərabər, ərzaq təhlükəsizliyinə, özünütəminat səviyyəsinin yüksəldilməsinə nail olmalıdır.

**İşğaldan azad olunmuş ərazilərdə böyük imkanlar**

Ölkədə kənd təsərrüfatının inkişaf perspektivlərindən bəhs edərkən Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin böyük aqrar potensialının olması reallığını mütləq qaydada nəzərə almaq lazımdır. Tarixən də burada kənd təsərrüfatında ayrı-ayrı istiqamətlər üzrə yaxşı ənənələr formalaşıb, demək olar ki, hər rayon bu və ya digər istiqamət üzrə ixtisaslaşıb. Mütəxəssislərin də qənaəti belədir ki, ənənələri dirçəltməklə Cəbrayılda heyvandarlıq, üzümçülük və baramaçılıq, Xocalıda kartofçuluq, üzümçülük və heyvandarlıq, Ağdamda heyvandarlıq, pambıqçılıq, taxılçılıq, Kəlbəcərdə heyvandarlıq, kartofçuluq, tərəvəzçilik, meyvəçilik, Laçında heyvandarlıq, taxılçılıq, bağçılıq, tərəvəzçilik, Qubadlıda heyvandarlıq, taxılçılıq, arıçılıq, baramaçılıq, üzümçülük, Füzulidə taxılçılıq, qoyunçuluq, bitkiçilik, Xocavənddə heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq, tərəvəzçilik, Şuşa rayonunda heyvandarlıq, meyvəçilik, quşçuluq, Zəngilanda heyvandarlıq, tütünçülük, taxılçılıq, üzümçülük, arıçılıq, baramaçılıq sahələrini dirçəltmək və inkişaf etdirmək mümkündür. Bununla da həm ölkənin ərzaq təhlükəsizliyinə güclü dəstək veriləcək, həm də Ümumi Daxili Məhsul (ÜDM) istehsalının artması üçün yeni mənbə formalaşmış olacaq.

Digər bir mühüm məqam ondan ibarədir ki, azad ərazilərin aqrar potensialının hərəkətə gətirilməsi Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdış proqramının həyata keçirilməsinə də güclü təkan verəcək. Bu gün azad ərazilərdə 80 mindən çox əhali yaşayır. Buradan da doğma yurd yerlərinə məmnuniyyətlə köç edən insanların məşğulluğu məsələsinin aktuallığı gündəmə gəlir. Bəhs olunan ərazilərin aqrar potensialının hərəkətə gətirilməsi isə yeni iş yerlərinin açılması deməkdir.

İşğaldan azad olunmuş ərazilərin aqrar imkanlarından geniş istifadə olunması üçün bütün zəruri şərtlər var. Xüsusilə də bu yerlərin münbit torpağı və su ehtiyatlarının zənginliyi kənd təsərüfatında yüksək məhsuldarlıq əldə edilməsinə şərait yaradır. "Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad ediləndən sonra dərhal orada su anbarlarının bərpasına başlamışıq və artıq Köndələnçay su anbarlarının sayı üç oldu. Xaçınçay, ondan sonra Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən quruldu. Sovet vaxtında yox idi, indi Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Qarabağda və Şərqi Zəngəzurda bizim 25 faiz su ehtiyatlarımız formalaşır. Onlardan səmərəli istifadə etmək, həm o bölgəni, həm digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Çünki vaxtilə Sərsəng və Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılanda məqsəd Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu su ilə təmin etmək idi. O vaxt, işğaldan sonra ermənilər suyumuzu kəsmişdilər. İndi bir kanal fəaliyyətdədir. Digər kanalın tikintisi davam edir və beləliklə, 8 rayona, təqribən 100 min hektar torpağa su veriləcək", - deyə Prezident İlham Əliyev kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirədəki çıxışında vurğulayıb.

**Böyük Qayıdış proqramının icrasında mühüm addım**

Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə bütün bərpa-quruculuq işləri planlı şəkildə reallaşdırılır. Bu, həm də torpaqların əkin dövriyyəsinə cəlb edilməsinə aiddir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bu günlərdə KİV-ə verdiyi müsahibəsində azad ərazilərdə görülən işlərin iki mərhələsini fərqləndirib. İlk mərhələ 2020-2025-ci illəri əhatə edir. Bu dövr daha çox infrastrukturun qurulması, şəraitin yaradılması, yeni kənd və şəhərlərin salınması, eləcə də əhali üçün kənd təsərrüfatının təşkili modelinin formalaşdırılması axtarışları ilə xarakterizə olunur.



İkinci mərhələdə isə kəndlərdə yaşayan, geriyə qayıdan əhaliyə 2025-ci ildən etibarən torpaqların təhkim olunması prosesinə başlanılıb. Artıq 14 kənddə bu istiqamətdə zəruri prosedurlar həyata keçirilir. Qurum rəsmisinin məlumatına görə, həmin kəndlərdən doqquzunda işlər başa çatdırılıb və fermerlərlə, əhali ilə müvafiq müqavilələr bağlanılıb.

Qeyd edək ki, fermerlərə təklif olunan torpaqlarda minimal əkin sahəsi hədəfi müəyyənləşdirilib - bu, 5 hektardır. Beş hektardan kiçik təsərrüfatın yaradılmasına icazə verilmir. Ona görə də bəzən fermerlər torpaq sahələri az olduğundan birləşərək kooperativlər və ya ailə kəndli təsərrüfatları, fermer təsərrüfatları yaradırlar. Artıq müxtəlif kəndlərdə bir neçə həm kooperativlər, həm ailə kəndli fermer təsərrüfatları yaradılıb və onlara həmin torpaqlar təhkim olunur. Məsələn, Ağalı kəndində 32 fermer birləşərək üç kooperativ yaradıb. Onlara 51,6 hektar torpaq təhkim olunub və müqavilələr bağlanıb. Digər bütün kəndlərdə də bu istiqamətdə işlər aparılır.

Nazir bildirib ki, mühüm istiqamətlərdən biri investisiya məqsədlidir, daha çox ərzaq təhlükəsizliyinə hesablanıb. Yəni daha dəyərli məhsul istehsalı istiqamətində torpaqların bu sahədə çalışan peşəkar fiziki və hüquqi şəxslərə - investorlara təhkim olunmasıdır. Bu, dövlət başçısının müvafiq fərmanı çərçivəsində həyata keçirilir. Fikirlərinə davam edən nazir bildirib: "Biz artıq iki müsabiqə keçirmişik. İlk müsabiqədə investorlarla təxminən 3 min 500 hektara yaxın sahə üçün müqavilə bağlanıb, növbəti beş il ərzində 70 milyon manata yaxın investisiya qoyulması nəzərdə tutulur. İkinci müsabiqədə 13 min hektar sahə müsabiqəyə çıxarılmışdı və həmin müsabiqə bu ilin fevral ayında başa çatdı. Hazırda müqavilələrin bağlanması üçün yekun proseslər həyata keçirilir. Müqavilə çərçivəsində növbəti beş il ərzində 100 milyon manatdan çox investisiyanın qoyulması nəzərdə tutulur. Burada müxtəlif istiqamətli torpaq təhkimləri həyata keçirilir. Bağçılıq, əkinçilik, heyvandarlıq, quşçuluq, istixana, gülçülük, aqroturizm istiqamətli layihələr təqdim olunur və komissiya tərəfindən baxılaraq qaliblər elan edilir. Qeyd edim ki, hazırda üçüncü və dördüncü investisiya müsabiqələri elan olunub və onların sənəd qəbulu həyata keçirilir".

**Aqroparklar azad ərazilərin iqtisadi gələcəyini müəyyənləşdirəcək**

Bu günlərdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvləri Ağdərə və Xocalı rayonlarına səfər çərçivəsində Ağdərə rayonunun Çaylı kəndində "Frutti Aqro" MMC tərəfindən salınmış intensiv meyvə bağına baxış keçiriblər. Onlara burada görülən işlər və planlaşdırılan tədbirlər barədə məlumat verilib.

Qeyd edək ki, "Frutti Aqro" işğaldan azad olunan ərazilərdə yaradılan müasir təsərrüfatlardan biridir. Məlumdur ki, postmüharibə dövründə azad ərazilərdə quruculuq-bərpa işləri Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq "yaşıl zona" konsepti və innovativ yanaşmalar əsasında həyata keçirilir. Hazırda bunun təzahürlərini həmçinin aqrar sektorda da aydın şəkildə görmək mümkündür. Aqroparkların yaradılması da buna yaxşı nümunədir. Hazırda Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 20 oktyabr 2022-ci il tarixində birinci mərhələsi istifadəyə verilən "Dost" aqroparkı uğurla fəaliyyət göstərir. Bu kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Əlamətdar haldır ki, "Dost" aqroparkının ət məhsulları satış bazarlarına "Made in Qarabağ" etiketi ilə çıxarılır.

Geniş aqrar potensiala malik Laçında isə Aqro-Sənaye Parkı yaradılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş "Laçın Aqro-Sənaye Parkı" fəaliyyətini genişləndirir. Rayonun Zerti kəndində yerləşən parkda artıq çoxlu sayda müəssisə fəaliyyət göstərir. O cümlədən burada müasir istixanalar, hidroponik şitilxanalar, tingçilik təsərrüfatı, göbələkçilik və yem yetişdirmə modulları yaradılıb. 27 may 2025-ci il tarixində isə Prezident İlham Əliyev aqro-sənaye parkında "LATIFA" tikiş fabrikinin açılışına qatılıb.

Bütövlükdə, aqroparklar müasir aqrar istehsalın təşkili, yeni texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması baxımından mühüm rol oynayır. Mütəxəssislər bildirilər ki, innovativ təsərrüfatlar Qarabağın iqtisadi gələcəyini müəyyənləşdirəcək. Bir qədər bundan əvvəl azad ərazilərdə yerli və mərkəzi icra strukturlarının nümayəndələrinin iştirakı ilə keçirilən aqrar müşavirədə azad ərazilərdə yeni müasir təsərrüfatların yaradılacağının anonsu edilib. Bildirildiyi kimi, hazırda Cəbrayıl rayonunda 28 milyon manat dəyərində damazlıq yumurta kompleksi yaradılır. Quşçuluq kompleksi 40 hektar sahəni əhatə edəcək və 2027-ci ilin ortalarında tam istismara verilməsi nəzərdə tutulur.

"Azorqanika" müəssisəsi isə Cəbrayıl rayonu ərazisində dəyəri 30 milyon manat olan istixana kompleksinin tikintisini planlaşdırır. Aqrar müşavirədə "Azorqanika" MMC-nin rəhbəri Nicat Məmmədov bildirib ki, layihə Quşçular kəndi ərazisində reallaşdırılacaq və 30 hektar ərazini əhatə edəcək. O həmçinin Zəngilan rayonunun Baharlı kəndində 102 hektar ərazidə intensiv və superintensiv bağların salınmasını vurğulayıb.

***Mübariz ABDULLAYEV***



## Azərbaycan, Türkiyə və Gürcüstanın birgə hərbi təlimləri regional təhlükəsizliyə xidmət edir



# "Qafqaz Qartalı-2026"...

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin də rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

**Dost və tərəfdaş ölkələrlə birgə hərbi təlimlər keçirilir**

Məlum olduğu kimi, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. Buna nümunə olaraq, ölkəmizlə qardaş Türkiyənin müxtəlif adlar altında keçirilən təlimlərini, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının "Üç qardaş" hərbi təlimlərini göstərmək olar.

Eləcə də, Azərbaycan hərbçilərinin Mərkəzi Asiya ölkələrinin hərbçiləri ilə birgə təlimləri də keçirilib. Belə ki, Qazaxıstanın qərbində yerləşən Manqistau vilayətində Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın hərbi qüvvələrinin iştirakı ilə regional beynəlxalq təlimlər baş tutub. Təlimlərə təxminən 4 min hərbi qulluqçu və 700-dək hərbi texnika cəlb olunub. Bundan əlavə, Özbəkistanın Səmərqənd vilayətində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçilərinin iştirakı ilə keçirilən çoxmillətli "Birlik - 2025" birgə regional təlimi keçirilib.

Bugünlərdə isə hərbi qulluqçularımızın iştirakı ilə Serbiyanın Buyanovats şəhəri yaxınlığında "Platinum Wolf - 2026" beynəlxalq taktiki təliminin "Yüksəksəviyyəli Müşahidəçi Günü" baş tutub. Tədbirdə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və onun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də təlimə qatılan digər ölkələrin yüksəksəviyyəli qonaqları iştirak ediblər. Qeyd edək ki, təcrübə mübadiləsinin aparılması, sülhməramlı əməliyyatların icrası zamanı tərəfdaş ölkələrin silahlı qüvvələri arasında qarşılıqlı uzlaşmanın gücləndirilməsi və hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə keçirilən təlimdə Amerika Birləşmiş Ştatları, Azərbaycan, Birləşmiş Krallıq, Bosniya və Herseqovina, İtaliya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya və Yunanıstandan olan hərbi qulluqçular iştirak ediblər.

**Üç ölkənin hərbi əməkdaşlığı...**

Azərbaycan, Türkiyə və Gürcüstan da dost və tərəfdaş ölkələr olaraq hərbi sahədə fəal əməkdaşlıq edir və birgə hərbi təlimlərin keçirilməsi də bunun əyani göstəricisidir. Belə ki, bugünlərdə Tbilisi yaxınlığındakı Muxrovani hərbi bazasında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının iştirakı ilə "Qafqaz Qartalı-2026" birgə taktiki-xüsusi təliminin açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və hərbi attaşelik aparatının nümayəndələri, eləcə də digər iştirakçı dövlətlərdən yüksəksəviyyəli qonaqlar iştirak ediblər.

Plana uyğun olaraq, əvvəlcə Azərbaycan, Türkiyə və Gürcüstanın müstəqilliyi və suverenliyi uğrunda canından keçmiş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər üç ölkənin Dövlət himnləri səsləndirilərək Dövlət bayraqları qaldırılıb. Açılış mərasimində çıxış edənlər qonaqları salamlayaraq, belə təlimlərin birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından vacib rol oynadığını vurğulayıb, iştirakçılara uğurlar arzulayıblar. Qeyd olunub ki, regionda təhlükəsizlik və müdafiə sahəsində üç tərəfdaş ölkə arasında əməkdaşlığın daha da gücləndirilməsini hədəfləyən bu təlim bölmələrin döyüş hazırlığı imkanlarının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Məlumdur ki, üçtərəfli platforma uzun müddətdir mövcuddur. Hər üç ölkənin liderlərinin, xarici işlər və müdafiə nazirlərinin görüşləri mütəmadi olaraq keçirilir. Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Nəhəng enerji şirkətlərinin də iştirak etdiyi Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahələri üzrə əməkdaşlığı öz səmərəliliyinə görə dünyada nümunəvi təcrübələrdən biri hesab oluna bilər. Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahəsində əməkdaşlığı həm region dövlətlərinin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyini təmin etmək siyasətinə uyğundur. Xatırladaq ki, üç ölkənin əməkdaşlığı ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrilib. Bundan əlavə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçtərəfli strateji əməkdaşlığın səmərəli nəticələridir.

Regional hərbi əməkdaşlıq məsələlərinə gəldikdə isə qeyd etməliyik ki, Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb və bu yaxınlarda Aİ üzvlüyünə namizəd statusuna yaşıl işıq yandırılıb, Azərbaycan isə heç bir hərbi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı, faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu yanaşmalara baxmayaraq, hər üç ölkə müxtəlif sahələr üzrə, xüsusilə hərbi sahədə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da inkişaf etdirir. Digər tərəfdən, Türkiyənin Qafqazda keçirilən hərbi təlimlərdə iştirak etməsi, onun regionda möhkəmlənməsi və nüfuzunun artması deməkdir. Bu isə istənilən halda həm Türkiyənin, həm Azərbaycanın, həm də Gürcüstanın strateji maraqlarına uyğundur.

**Üçtərəfli platforma ənənə halını alıb**

2014-cü ildən başlayaraq Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirləri səviyyəsində baş tutan görüşlər isə mütəmadi olaraq növbə ilə ölkələrdən birində ötürülür. Ümumiyyətlə, Azərbaycan, Türkiyə və Gürcüstanın oxşar təhlükəsizlik problemləri, hərbi sahədə əməkdaşlığı şərtləndirən amillərdən hesab edilir. Türkiyənin Gürcüstanın NATO-ya inteqrasiyasında müsbət rol oynaya biləcək, ortaq quru sərhədlərinə malik yeganə qonşusu olduğunu da diqqətdən qaçırmaq olmaz. Təbii ki, Türkiyə strateji tərəfdaşlarına istehsal etdiyi silahları tədarük edir. Birgə təlimlərdə isə yeni silahların praktik tətbiqi ilə bağlı metodik məşğələlər və təcrübə mübadiləsi keçirilir.

Onu da qeyd edək ki, regionda uzun müddət davam edən təhdidlərin qarşısının alınması üçün hər üç tərəfdaş ölkə səylərini birləşdirərək aktiv şəkildə müştərək təlimlərə qoşulmağa qərar verib. Birgə hərbi təlimlərin təşkili barədə razılaşma daha əvvəl keçirilən üçtərəfli görüşlər nəticəsində əldə olunub və onlar mütəmadi olaraq növbə ilə tərəfdaş ölkələrdən birinin ərazisində reallaşdırılır. Bu təlimlər ekspertlər tərəfindən də üçtərəfli əməkdaşlığın müsbət nəticəsi kimi dəyərləndirilir.

***Nardar BAYRAMLI***

# ABŞ təmkinli pul siyasəti yürütməkdə davam edir

## Federal Ehtiyat Sistemi daxili və xarici riskləri nəzərə alaraq uçot dərəcəsini sabit saxlayıb

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Mərkəzi Bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) iyunun 17-də keçirilən iclasında 2026-cı ilin üçüncü pul siyasəti qərarını açıqlayıb. Qərara əsasən, faiz dərəcəsi 3,50- 3,75 aralığında sabit saxlanılıb. Yəni, FES aşağı uçot siyasətinin davam etdirilməsini məqsədəuyğun hesab etməyib və mövcud stavkanı məqbul sayıb. Qeyd edək ki, FES sonuncu dəfə 2025-ci il dekabrın 10-da faiz dərəcəsini 25 baza bəndi endirib və hazırda bu rəqəm 3,75-dən yüksək deyil. Bu isə mövcud uçot dərəcəsinin 2022-ci ilin sonundan bəri ən aşağı səviyyədə qaldığını əks etdirir.

FES-in bu qərarı yeni sədr Kevin Uorşun rəhbərliyi altında qəbul edilən ilk addım sayılır. Çoxları əvvəlki FES sədri Jerome Poveli iqtidarın kadrı olmadığını və faiz siyasətində administrasiyanın tələblərini icra etməyən maliyyəçi kimi tanıyır. Uorşu isə Trampın kadrı hesab edir. Ona görə də, yeni FES sədrinin eyni faiz siyasətini davam etdirməsi maliyyə sektorunda təəccüblə qarşılanıb. Ancaq iqtisadçılar Kevin Uorşun faiz dərəcələrinin dəyişməz saxlanması ölkədəki iqtisadi vəziyyətdən qaynaqlandığını düşünür. Ölkədə inflyasiya və iqtisadi artım perspektivləri ilə bağlı vəziyyət bu, ehtiyatlı qərarın verilməsinə səbəb olub.

### FES-in qərarı kriptoinvestorları məyus edib

Faiz qərarı ilə bağlı FES heyətində müəyyən fikir ayrılıqları da yaşanıb. Əksər üzvlər faizin sabit saxlanmasına səs versə də, bəzi bank nümayəndəsi faizlərin 3,25 nisbətinə endirilməsini təklif edib. Həmin şəxslərin kriptobazarın fəal dəstəkçisi olduğu istisna edilmir, çünki aşağı faizlər dəhliz investisiya və fond bazarlarında kriptovalyutanı, əsasən də bitkoini bahalaşdıra bilər. Hazırda bu bazarda durğunluq hökm sürür ki, investorlar mövcud mühitdən narahatdır. Xüsusilə də Trampa yaxın biznes icması aşağı faiz dərəcəsi şəraitində virtual bazarın aktivləşməsinə çalışır.

Onlar hesab edirlər ki, aşağı faiz dəhlizi maliyyə-bank sektorunda daha sərfəli və ucuz kredit mühitini təmin edə, maliyyə qurumlarını əlverişli faiz dəhlizi çərçivəsində iqtisadiyyata böyükhəcmli pul buraxmasını stimullaşdıra bilər. Eləcə də maliyyə sektoru və investorlar bazara çoxlu pul və qiymətli kağızlar emissiya etməklə iqtisadi canlanmanı, alıcılıq və istehlak dövriyyəsini artırmağa çalışır. Ancaq bank heyəti hazırkı qlobal təhdidlər fonunda belə bir addımın fayda verəcəyinə inanmadığından aşağı dəhlizi dəstəkləmir. Bunun əsas səbəbi isə ABŞ-da işsizlik səviyyəsinin azalmaması, iqtisadi fəallığın hələ də qənaətbəxş olmaması və inflyasiyanın artmasıdır.

### Yaxın Şərqdəki gərginlik pul siyasətinə təsir edir

FES sədri Kevin Uorşun ilk mesajlarından belə aydın olur ki, ABŞ-da inflyasiya hələ də yüksək səviyyədə qalır və hazırda qlobal bazarda enerji qiymətlərinin yüksək qalması inflyasiyanı daha da artıracaq. Xüsusilə də, yeni neft şokunun yaşanması mal və xidmətlərin dəyərini kəskin bahalaşdırmaqla inflyasiyanın hərarətini artıracaq.

ABŞ Mərkəzi Bankının açıqlamasından da məlum olur ki, qurum ehtiyatlı və mühafizəkar pul siyasətinin davam etdirilməsində qərarlıdır. Buna təsir edən bir çox fundamental amillər var ki, onlar həm daxili makroiqtisadi mühitdən, həm də xarici təsirlərdən qaynaqlanır. İll növbədə, ABŞ-da inkişaf göstəriciləri kifayət qədər qənaətbəxş hesab edilsə də, bəzi bazar və maliyyə indikatorları hökumətin baxışlarına tam cavab vermir. Ölkədə ilin ilk 5 ayı ərzində iqtisadi fəaliyyət sabit şəkildə davam edib, əmək bazarı güclü qalır və işsizlik səviyyəsi son aylarda əhəmiyyətli dəyişiklik göstərməyib. Ancaq bununla belə, inflyasiya hələ də hədəf səviyyəsindən yüksəkdir, maliyyə indeksləri artmayıb, hətta bəzi investisiya qurumlarının və fond institutlarının indeksləri cüzi ucuzlaşıb. Mart ayında isə iqtisadi aktivlik müəyyən qədər zəifləyib, istehlak sektorunda artım tempi yavaşıyıb, biznes göstəricilərində ehtiyatlı dinamika müşahidə olunur. Bu vəziyyət ABŞ dollarının qlobal valyuta bazarlarında güclü və davamlı yüksəliş trendi formalaşdırmasının qarşısını da alır.

Yaxın Şərqdəki gərginliyin ABŞ iqtisadiyyatına təsiri ilə bağlı qeyri-müəyyənliyə diqqət çəkən FES xarici faktorun pul və maliyyə bazarlarını təhdid edəcəyini gizlətmir. Bu ssenarilər şəraitində qiymət sabitliyi və tam məşğulluq hədəfləri üzrə riskləri yaxından izləməyə davam edəcəyini vurğulayan qurum gərginliyin uçot siyasətinə mənfi təsirlərini istisna etmir. Qeyd olunduğuna görə, gələcək faiz qərarlarında iqtisadi göstəriciləri, proqnozlardakı dəyişiklikləri və risk balansını diqqətlə qiymətləndirəcək. Gərginlik bir neçə ay davam etsə, Mərkəzi Bankın faiz dərəcələrini aşağı salması tamamilə gündəlikdən çıxarılacaq.



### FES-in qərarı qlobal bazarlara necə təsir göstərəcək?

FES-in yüksək faiz dərəcələri qlobal maliyyə və investisiya bazarını müəyyən qədər sıxır və səhmdarlar aktivlərə yüksək həcmlərdə kapital yatırmırlar. Aşağı dərəcəli faiz stavkası isə qlobal bazar iştirakçıları və iri səhmdarlar üçün də xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, ABŞ-ın uçot siyasəti qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, ələlxüsus da birjalarda virtual volatilliklərin baş verməsinə səbəb olur. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri artımlar nümayiş etdirir.

Beləliklə, FES-in sabit uçot dərəcəsi qlobal mühitdə qeyri-müəyyənliklərin davam etməsinə səbəb olacaq, investorların kapital daralması fonunda gözləmə mövqeyində durmasını şərtləndirəcək. ABŞ-la yanaşı, qlobal investorlar arasında investisiya alətlərinin qızıl və kritovalyuta yığımlarına transformasiyasını eyni səviyyədə saxlayacaq. Qlobal səhmdarlar, iri şirkətlər, suveren fondlar faiz dəhlizinin təsirləri fonunda investisiya alətlərinin dəyərini qoruyub saxlamağa üstünlük verəcək. Çünki neft sıçrayışlarının fond bazarlarını sarsıtma ehtimalı böyükdür və dünya iqtisadiyyatında qlobal müəyyənsizliyin artması səhmdarların digər sahələrə də sərmayələrini azaltmağa məcbur edəcək.

*E.CƏFƏRLİ*

# 47 ildən sonra ilk dəfə...

## ABŞ və İran arasında anlaşma memorandumu imzalandı

ABŞ ilə İran arasında iyunun 19-da imzalanacağı gözlənilən qarşılıqlı anlaşma memorandumu iyunun 17-də imzalanıb. Müharibəyə son qoyan və Hörmüz boğazının açılmasını təmin edəcək anlaşma memorandumu distant şəkildə imzalanıb - saziş qüvvəyə minib.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Esmail Baqeyinin verdiyi məlumata görə, tərəflər sazişi elektron şəkildə imzalamaq barədə razılığa gəliblər və artıq Cenevrədə əvvəllər planlaşdırılan rəsmi mərasimə ehtiyac olmayacaq. Baqeyi sənədin ABŞ və İran prezidentləri Donald Tramp və Məsud Pezeşkian tərəfindən imzalandığını bildirib. "Mətn hər iki ölkənin ən yüksək vəzifəli şəxsləri tərəfindən imzalandıqda, onun pozulması təbii ki, daha ciddi nəticələrə səbəb olacaq. Keçmiş təcrübəmizi nəzərə alaraq, bunun bu şəkildə baş verməsini üstün tutduq", - deyə o bildirib.

**Pezeşkian Tehranda, Tramp Evianda...**

"Axios" mənbələrə istinadən sənədin daha tez imzalanmasının səbəblərini araşdırıb. Portalın mənbələrinə görə, müqavilə Hörmüz boğazının mümkün qədər tez açılması üçün sürətləndirilib. Mənbələr qeyd ediblər ki, Vaşinqton və Tehran nümayəndələri arasında iyunun 19-da İsveçrədə keçirilməsi planlaşdırılan görüş isə tam ləğv edilməyib. ABŞ vitse-prezidenti C.D. Vens və İran Parlamentinin sədri Məhəmməd Baqer Qalibafın İranın nüvə proqramı ilə bağlı danışıqların başlanması məsələsini müzakirə etmələri gözlənilir. "Axios" həmçinin bildirir ki, ABŞ Prezidenti Donald Tramp sənədi Fransa Prezidenti Emmanuel Makronla Evian şəhərində keçirilən G7 sammiti çərçivəsində şam yeməyi zamanı imzalayıb.

Qeyd edək ki, iyunun 15-də ABŞ və İran Pakistanın vasitəçiliyi ilə aparılan sülh danışıqlarının nəticəsi kimi anlaşma memorandumunun imzalanacağını bəyan etmişdilər. Elə həmin gün ABŞ Prezidenti neftdaşıyan tankerlər də daxil olmaqla, buraxılmayan gəmilərin Hörmüz boğazından çıxmağa başladığını elan etdi. Eyni zamanda, İranın Mehr xəbər agentliyi iki ölkə arasında 14 maddəlik anlaşma memorandumu dərc etdi. İranın açıqladığı məqamlar arasında bütün cəbhələrdə dərhal atəşkəs, dəniz blokadasının qaldırılması və 30 gün ərzində Hörmüz boğazından gəmilərin daşınmasını bərpa etmək, neft sanksiyalarının dayandırılması və İranın maliyyə aktivlərinə çıxışı, ABŞ qoşunlarının İranı əhatə edən ərazilərdən çıxarılması, yenidənqurma üçün 300 milyard dolların ayrılması, 24 milyard dollarlıq İran vəsaitinin ayrılması və nüvə proqramı üzrə yekun razılaşma üçün 60 günlük danışıqlar var. İran NPT-yə sadiqliyini bir daha təsdiqləyir və raket proqramı və üsyançı qruplara dəstək müzakirələri gündəmdən çıxarılır. Daha sonra Əl-Ərəbiyyə televiziya kanalının dərc etdiyi 12 və 14 bəndlik versiyalarda ABŞ qoşunlarının 30 gün ərzində çıxarılması nəzərdə tutulur. Həmçinin İran aktivlərinin məbləği də göstərilmir.





### Müharibə bitdi, Hörmüz boğazı açıldı



**Sazişə əsasən...**

Beynəlxalq media tərəfindən dərc olunan memorandumun mətnində ölkələr bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi və bir-birinin daxili işlərinə müdaxilə etməməyi öhdələrinə götürdükləri bildirilir. Saziş aşağıdakıları nəzərdə tutur:

- İranın nüvə silahlarının istehsalından və əldə edilməsindən imtina etməsi;
- Atom Enerjisi üzrə Beynəlxalq Atom Enerjisi Agentliyinin (IAEA) İranın nüvə materialları üzərində nəzarəti;
- İranın 300 milyard dollarlıq yenidənqurma proqramı;
- İran 60 gün ərzində Hörmüz boğazından tranzit üçün gəmilərdən ödəniş almayacaq;
- ABŞ, müqavilənin son versiyasında razılaşdırılmış müddətə Tehrana qarşı sanksiyaları ləğv edəcək.

Tramp Fransada jurnalistlərə açıqlamasında İranla anlaşma memorandumunu imzaladığını bildirib. Qeyd edək ki, 28 fevralda başlayan Yaxın Şərq müharibəsinin ardından, mart ayından etibarən Hörmüz boğazı demək olar ki, tamamilə bağlanıb. Münaqişə nəticəsində İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) boğazın nəzarətini ələ keçirib. 13 apreldən bəri ABŞ Hərbi Dəniz Qüvvələri, digər ölkələrlə birlikdə, Tehrana keçid üçün pul ödəyən gəmiləri müəyyən etmək və ələ keçirmək üçün Hörmüz boğazını blokada edib. Hörmüz boğazı qlobal neft ticarəti üçün ən vacib marşrutlardan biridir və gübrələrin əsas tranzit yoludur. Yaxın Şərqdəki münaqişə neft, qaz və reaktiv yanacağın qlobal qiymətlərinin artmasına səbəb olub.

**İran müqaviləni pozsa...**

Memorandum 1979-cu il İslam İnqilabından bəri ABŞ və İran prezidentləri tərəfindən birgə imzalanan ilk sənəddir. Sazişin hazırlanmasında iştirak edən İran Parlamentinin sədri Məhəmməd Baqer Qalibaf İran televiziyasına bildirib ki, bununla müqayisə ediləsi heç nə yoxdur: "Hərbi əməliyyatlar yolu ilə əldə etməyə çalışdığımız hər şeyə danışıqlar yolu ilə nail olduq".

Tramp isə G7 sammitindən sonra jurnalistlərə bildirib ki, İran hökuməti müqaviləni pozarsa, ABŞ onları "cəhənnəmə bombalayacaq".

Anlaşma memorandumu 60 günlük atəşkəs rejimini müəyyən edir və Hörmüz boğazını gəmiçilik üçün açır. Məlumata görə, sənəddə digər məsələlərlə yanaşı, Tehranın dərhal neft satışlarını bərpa edə biləcəyi və 300 milyard dollarlıq özəl investisiya fonduna çıxış əldə edə biləcəyi qeyd olunur. İran öz növbəsində nüvə silahlarının hazırlanmasından imtina edəcəyinə və gəmilərin Hörmüz boğazından sərbəst keçidini təmin edəcəyinə söz verir. Memorandumda həmçinin sanksiyaların aradan qaldırılması, İranın dondurulmuş aktivlərinin bir hissəsinə çıxışı və nüvə proqramı üzrə danışıqların davam etdirilməsi barədə də danışılır.

Sənədin ayrıca bloku nüvə mövzusuna aiddir. İran nüvə silahı inkişaf etdirməmək və ya əldə etməmək öhdəliyini bir daha təsdiqləyir. Zənginləşdirilmiş uranla bağlı məsələlər Beynəlxalq Atom Enerjisi Agentliyinin iştirakı ilə gələcək sazişlərin bir hissəsi kimi müzakirə edilməlidir.

Pakistanın Baş naziri Şahbaz Şərif bildirib ki, memorandum dərhal qüvvəyə minir və ilk addım İran tərəfindən Hörmüz boğazının açılması və ABŞ tərəfindən dəniz blokadasının qaldırılması olmalıdır.

*P.İSMAYILOV*

# İRƏVANIN MAARİFÇİ, İLK PEDAQOQ XANIMLARINDAN BİRİ - FATMA QƏDİMOVA

XX əsrin əvvəllərində İrəvanda qadın təhsilindən danışarkən bu coğrafiyadakı azərbaycanlı qızlar və qadınlar arasında maarifin, mədəniyyətin yayılmasında müstəsna xidmətləri olmuş azərbaycanlı xanım ziyalıların, maarifçilərin arasında Fatma Qədimovanın adını xüsusi ehtiramla yada salmaq lazımdır. Qərbi Azərbaycanda milli maarifçilik mühitinin formalaşmasında azərbaycanlı ziyalı qadınlar arasında Fatma xanımın böyük xidmətləri olmuşdur. İrəvanda ilk azərbaycanlı qadın müəllimlərindən olan Fatma Məmməd qızı Qədimova 1885-ci ildə İrəvan yaxınlığındakı Zəngibasar rayonunun Hacı İlyas (Hacı Elləz) kəndində anadan olmuşdur. Erkən yaşlarında atasını itirmiş Fatma dayısının himayəsində böyümüş, ilk təhsilini dövrün tərəqqipərvər maarifçilərindən olan dayısının yanında almışdır. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda milli maarifçiliyin inkişafında böyük fədakarlıq göstərmiş, ömrünün böyük bir hissəsini, bütün qüvvəsini, bilik və bacarığını yorulmaq bilmədən, öz xalqının oğul və qızlarının təlim-tərbiyəsinə, elmə, təhsilə yiyələnməsinə həsr edən Fatma xanım 1900-cü illərdən müəllimlik fəaliyyətinə başlamışdır. O, İrəvan qızlar gimnaziyasını bitirdikdən sonra 1905-ci ildə İrəvan rus-tatar qız məktəbində əmək fəaliyyətinə başlamışdır. Həmin dövrlərdə bəzi cahillərin hədə-qorxuları ilə qarşılaşsa da, azərbaycanlı xanımların azadlığı və maariflənməsi uğrunda mübarizədən geri çəkilməmişdir. Fatma xanım İrəvan Azərbaycan maarifçilik mühitində o dövrün maarifpərvər, parlaq şəxsiyyətləri Məmmədvəli Qəmərlinski, Mirzə Cabbar Məmmədzadə, Tərlan xanım Sultanova, Bülbül Kazımova və başqa tərəqqipərvər ziyalıları ilə birlikdə çiyin-çiyinə çalışmışdır.

Olduqca maarifpərvər və mətin iradə sahibi olan Fatma xanım həyat yoldaşı, silahdaşı Mirzə Rza ilə birlikdə İrəvanda milli maarifin inkişafına böyük töhfə vermişlər. 1914-cü ilin Cahan müharibəsindən sonra yetim və yurdsuz qalan bir sıra azərbaycanlı uşaqlarının təlim və tərbiyəsində, təhsilə yiyələnməsində onların böyük əməyi olmuşdur.

1918-ci ildə erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar zamanı rus-tatar qız məktəbinin də fəaliyyəti dayandırıldı. Fatma xanım da digər soydaşlarımız kimi, amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün öz doğma ocağını tərk etməyə məcbur olmuşdur. 1920-ci ildən sonra öz doğma yurduna dönən Fatma xanım pedaqoji fəaliyyətini yenə də böyük həvəslə və inamla davam etdirmişdir.



1920-ci ildə "Ermənistanda" sovet hakimyyəti qurulmasından iki il keçməsinə baxmayaraq, 1922-ci ilə qədər hələ də İrəvanda azərbaycanlı məktəbi təşkil olunmamışdı. Təhsilin əhəmiyyətini aydın dərk edən Fatma xanım heç bir təmənna ummadan İrəvan şəhərindəki iki otaqdan ibarət olan mənzilinin bir otağını sinfə çevirib azərbaycanlı qızlar üçün kiçik bir məktəb yaradır, uşaqlara yazıb-oxumağı öyrədir. Burada Fatma xanım 40-a qədər azərbaycanlı oğlan və qıza öz ana dilində təhsil verir, onların maariflənməsinə çalışmışdı. Dövrün çətinliklərinə baxmayaraq, Fatma xanım həmişə azərbaycanlı övladlarının təhsilə cəlb olunması yolunda böyük zəhmət çəkmişdir.

Vaxtilə Fatma müəllimənin şagirdi olmuş, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin məzunu, "Qızıl şəfəq" qəzetinin fəal müxbirlərindən olan Abdulla Mirzəyev öz müəlliməsinin bu milli təəssübkeşliyini minnətdarlıq hissi ilə xatırlayaraq yazır: "Otaqda 6 parta qoyulmuş, onun önündə isə divara bir yazı taxtası vurulmusdu. Otağın yuxarı başı Şərq üslubunda döşənmişdi. Müəllimə və qızlar isə burada oturardular. Müxtəlif bilik səviyyəsində olan şagirdlərdən bəziləri "Birinci il", bəziləri "İkinci il", bəziləri "Yeni məktəb" kitablarından dərs alırdılar. Hər birimiz ayrı-ayrılıqda müəllimənin yanına gedir, köhnə dərslərimizi oxuyur və yeni dərs alırdıq. Bu balaca məktəbdə, ana dilindən başqa, hesab, təbiət və coğrafiyadan da dərs keçirdik.

Müəllimənin mehriban və mülayim rəftarı bizim məktəbə və təhsilə olan marağımızı qat-qat artırmışdı. 5 saata qədər davam edən məşğələmizdə ancaq bir dəfə tənəffüs edir, qalan vaxtları isə verilən dərsləri hazırlamaqla məşğul olurduq. Yazı işlərini belə, sinifdə qurtardığımız üçün evdə çalışmağa bir iş qalmırdı".

1920-ci ildən sonra İrəvanda yeni tipli azərbaycanlı məktəbinin təşkilində böyük xidməti olan Fatma Qədimova öz evində açdığı balaca məktəbini 1923-cü ildə yeni təşkil edilən böyük məktəbə köçürür.

Fatma xanım 1923-cü ildə İrəvanda yeni təşkil olunmuş azərbaycanlı məktəbində dərs deməklə yanaşı, İrəvanın mədəni, ictimai həyatında da fəal iştirak etmişdi.

Qərbi Azərbaycanda azərbaycanlı kənd məktəblərinin təşkili məsələsi şəhər müəllimlərindən bir çoxunun kəndə getməsini zəruri edirdi. O zaman kənddə hələ lazımi şərait olmadığından bəzi müəllimlər kəndə getməkdən imtina edirdilər. Amma Fatma xanım 1929-cu ildə Maarif Komissarlığından azərbaycanlı kəndlərinə işləməyə getməyi özü xahiş edir. O, xahişinə əsasən Zəngibasar rayonunun Aşağı Necili kənd məktəbinə müəllim təyin edilir. Fatma xanım həmin məktəbdə 2 il işlədikdən sonra pedaqoji fəaliyyətini rayon maarif şöbəsinin qərarı ilə Zəngibasar rayonunun Məsimli kəndində, sonra isə Reyhanlı, Bulaqlı kənd məktəbində davam etdirir. Sonralar isə bir neçə il Sarvanlar kənd məktəbində çalışır. Fatma xanım hansı kənddə işləyirdisə, orada məktəb və mədəni-maarif işlərini qısa zaman ərzində qaydaya sala bilirdi. 1955-ci ildə Qəmərli rayonunun mədəniyyət evində Fatma xanımın anadan olmasının 70 illiyi, pedaqoji fəaliyyətinin isə 50 illiyi böyük təntənə ilə qeyd edilmişdir. Həmin yubiley tədbirində Zəngibasar rayon orta məktəbinin müəllimi, tanınmış maarif xadimi Əsəd Məmmədov Fatma xanımın həyatı və pedaqoji fəaliyyəti haqqında geniş məruzə etmiş, Aşağı Necili kənd məktəbinin direktoru Sənan Qədiməliyev və başqaları isə çıxış edərək Fatma Qədimovanın gənc nəslin təlim-tərbiyəsində göstərdiyi böyük xidmətlərdən danışmışlar. Əməkdar müəllim Fatma xanımın ünvanına Bakıdan, Gəncədən və müxtəlif şəhərlərdən gələn təbrik məktubları yubilyarın sevincinə daha da xoş ovqat qatmışdır. Azərbaycanın görkəmli elm xadimləri Tağı Paşayev, Mirəli Seyidov, Nəzirə Axundova, Kövsər Tarverdiyeva və başqaları onun yetirmələridir. İki dəfə Lenin ordeni almış, təşkilatçılığı və peşəkarlığı ilə seçilən, ürəkdən bağlı olduğu sənətinin uğurları ilə diqqəti çəkən Fatma xanım 1944-cü ildə Əməkdar müəllim adına və bir sıra Fəxri fərmanlara layiq görülmüşdür. İrəvanın tanınmış pedaqoqlarından olan Mirzə Rza ilə ailə həyatı qurmuşdu. Fatma xanım ömürgün yoldaşı Mirzə Rza ilə birlikdə xalqa xidmətləri, böyük fəaliyyətləri ilə bu gün də hörmət və ehtiramla yad edilirlər. Dövrünün sayılıb-seçilən ziyalılarından olmuş, maarifçi, pedaqoq Fatma xanım 1968-ci il yanvar ayının 6-da İrəvanda vəfat etmişdir.



*Cəlal Zəngi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# İdeyalar aləminə səyahət

## Tomas Mannın "Sehirli dağ" romanı haqqında

**əvvəli ötən sayımızda**

Əslində, "Sehirli dağ" romanı ruhla bədənin qarşılıqlı münasibəti haqqındadır, ancaq müəllif bu kontekstdə (zatən başqa bir kontekst heç yoxdur da!) çağdaşlarını (özü də təkcə onları yox) həyəcanlandıran bir çox fəlsəfi-psixoloji, sosial-tarixi mülahizəni fikir arenasına çəkir, həyat-ölüm, məhəbbət-əzab, xəstəlik-sağlamlıq, tərəqqi-konservatizm, rasionalizm-irrasionalizm, Apollon-Dionis, Eros-Tanatos kimi dövrünün (təkcə o dövrün də yox) aktual dilemmalarından çıxış yolu axtarır, Avropa sivilizasiyasının keçmişinə-gələcəyinə dair qaranlıq ehtimalları rentgen şüası kimi işığa tutmağa çalışır. "Tərbiyələndirmək istədiyi" gənc qəhrəmanını ölüm-dirim məqamına, gərgin polemika mühitinə salan yazıçı metoddan yararlanıb, iyirminci əsrin birinci rübündə Avropa düşüncəsində at oynadan bütün əsas fikir cərəyanlarına meydan verir, ancaq usta qələm adamı kimi özünün, yaxud qəhrəmanının onlardan hansı birinə xüsusi rəğbət bəslədiyini, əlbəttə, büruzə vermir.

***

Beləliklə, 1907-ci ilin yay mövsümünün ortalarında iyirmi üç yaşlı gənc mühəndis Hans Kastorp Almaniyanın Hamburq əyalətindən yola çıxıb, "Berqhof" sanatoriyasında vərəmdən müalicə olunan qohumu (müəllif onu dayoğlu kimi təqdim eləsə də, əslə Hansın ana tərəfdən əqrəbasıdır) Yoaxim Simsseni yoluxmaq üçün İsveçrənin Davos kurort şəhərinə gəlir. Dəmiryol stansiyasında onu şəxsən dayısı oğlu özü qarşılayır, birlikdə sanatoriyaya qalxırlar. Yoaxim 33-cü otaqda yaşayır, Hansa isə onun qonşuluğundakı 34-cü (üçlə dördün cəmi də yeddi eləyir) otağı verirlər, bu otaqda iki gün qabaq bir amerikalı qadın ölüb.

Kastorp yerbəyer olandan sonra qohumlar sanatoriyanın yeməkxanasında deyə-gülə şam eləyirlər. Yoaxim Hansı baş həkimin köməkçisi doktor Krokovski ilə tanış eləyir. Krokovski xəstələr arasında psixoanalitik seanslar keçirir, baş həkimdən fərqli olaraq o, pasiyentlərin cisminin yox, ruhunun qeydinə qalır. Krokovskinin sualına verdiyi cavabda Kastorp inamla tam sağlam olduğunu söyləyir, ancaq həkim onun cavabını istehzalı təbəssümlə qarşılayır, tam sağlam olmağın mümkünlüyünə şübhəylə baxdığını gizlətmir.

Hans Kastorp ata-anasını erkən itirib, ondan sonra babasının himayəsində yaşayıb. Babası da öləndən sonra onu anasının əmisi qəyyumluğa götürüb. Himayədarlarının sayəsində Hans ehtiyac çəkməyib, gözütox böyüyüb, üstəlik, valideynlərindən ona normal yaşamağa yetəcək qədər miras qalıb. Uşaqlıqda rəsm çəkməyə meyli olsa da, rəssamların maddi baxımdan çətin həyatı onu bu sənətə bağlanmaqdan çəkindiribdi. Hans əməyə saygıyla yanaşır, amma özünü işə verməyə çox da həvəsli deyil. İyirmi iki yaşına qədər bu gənc mühəndis ixtisasına yiyələnmək məqsədiylə politexnik profilli üç təhsil müəssisəsində dərs alıb, oxumaqdan, çətin imtahanlara hazırlaşmaqdan canı üzülüb. Bu səbəbdən həkim ona səs-küydən uzaq dağ yerində bir-iki həftə dincəlməyi məsləhət görüb.

Səhər yeməyi mərasimində (böyük zalda xəstələrin səhər-günorta-axşam yeməkləri adətən bayram mərasimi, qədim ovçu ritualı kimi keçirilir) Hans sanatoriyanın baş həkimi Berenslə, eləcə də bu məbədin başqa sakinləriylə tanış olur. Burada hər kəsin öz masası, masa yoldaşları var. Gəzinti zamanı Yoaxim onu Lodoviko Settembrini ad-soyadlı qəribə bir italyanla da tanış eləyir. Settembrini coşqun bir ədəbiyyat dəlisi, humanist intibah ənənələrinin fanatik ardıcılı, ağlı tanrı bilən əqidəli maarifçidir, ona görə də öz biliklərini Kastorpun ağ vərəq kimi təmiz ruhuna (tabula rasa) köçürməyə, mənəvi oriyentasiyasını hələ tapmamış həssas gəncə dayəlik, ustadlıq eləməyə həvəslə girişir.

Gəzintidən sonra qohumlar eyvanda uzanıb təmiz havayla nəfəs alırlar. Yoaxim təlimata uyğun olaraq temperaturunu ölçür, Hans zamanın mahiyyəti barədə fikirlərini dilə gətirir. Nahardan qabaq onlar sanatoriyadan aşağıda yerləşən kurort kəndinə enirlər. Ürəyi möhkəm döyünən Hans özünü yorğun hiss eləyir. Nahar zamanı fikir verir ki, xəstələr yeməyi canavar iştahıyla içəri ötürürlər. Hər dəfə yemək zalına girəndə qapını bərk çırpan pasiyentin də kimliyini axır ki, öyrənir - bu, sarışın saçlı rus qızı madam Şoşadır (yeddi nömrəli otaqda qalır), onun yeri "yaxşı" rus masasının (ona görə belə adlanır ki, bu zalda "pis" rus masası da var) arxasındadır.

Axşam çayından, şam yeməyindən sonra Kastorp tamam bezmiş-tükənmiş hala düşür. Yatmamışdan pasiyentlərə qaynayıb-qarışır, Settembrini ilə söhbətləşir. Yatağına girəndə uzun müddət yuxuya gedə bilmir, gözləri yumulandan sonra isə əcaib, qarışıq yuxular görür.

***

Hansın "Berqhof"da qaldığının üçüncü günü dağlara qar yağır. Yoaxim qohumuna izah verir ki, buralarda fəsillər birbirindən, demək olar, fərqlənmir, qar avqustdan maya qədər yağır, birdən də qışın oğlan çağında hava qəfil mülayimləşir. İkinci səhər yeməyindən sonra qohumlar aşağı kəndə enirlər, qayıdanda isə Settembrini ilə rastlaşırlar. İtalyan Hansın səfehliklə xəstəliyin bir araya sığmadığı haqda fikrinə şübhəylə yanaşıb onunla polemikaya girir.

Bazar günü sanatoriyada musiqi səsləndirilir, ruslar buz üstündə sürüşməyə gedirlər. Bazar ertəsi Hans Kastorp gündəlik yaşayışın darıxdırıcı trayektoriyasından çıxmaq üçün təkbaşına dağları gəzib dolaşır. Gəzinti zamanı onun burnundan qan açılır. Çayın suyunda burnunun qanını yuyandan sonra o, skamyanın üstünə uzanıb yeniyetməlik sevgisini xatırlayır. Hansa indi əyan olur ki, madam Şoşa onun "qırğız gözlü" ilk məhəbbətinə bənzəyirmiş.

Saat on birdə doktor Krokovskinin mühazirəsi başlanır. Kastorp madam Şoşayla yanaşı oturub həkimin sevgi haqqında tibbi-psixoloji mülahizələrini dinləyir. Həftənin ikinci günü Hans sanatoriyada qalmağının bir həftəlik haqqını ödəyir. Yoaximdən öyrənir ki, çox güman, bu məbədin baş kahini - arvadı vərəmdən öləndən sonra bütün həyatını sanatoriyadakı işinə həsr eləmiş baş həkim Berens özü də buradakıların yoluxduğu xəstəliyə mübtəladır.

Dağ gəzintisindən sonra Hansın başı əsməyə başlayır. Eyni masa arxasında oturduğu fröyleyn Engelhart onun madam Şoşaya maraq göstərdiyindən duyuq düşür. Bundan sonra pedaqoq qadın Hansa atmacalar atmaqla onun sevgi həyəcanlarının ortağına çevrilməyə can atır. Gənc aşiq yemək zamanı Klavdiyanın (madam Şoşanın adı beləymiş) baxışlarını tutmağa, onunla göz-gözə gəlməyə, dəhlizlərdə guya təsadüfən onunla qarşılaşmağa çalışır.

Humanizm dinindən vəcdə gələn Settembrini qohum gənclərə vahid ümumdünya burjua respublikasından, ümumbəşəri qardaşlıqdan, bərabərlikdən coşqun bir etiqadla, qızğın inamla dəm vurur. Hans Kastorp hesablayır ki, bir xəstənin il ərzində sanatoriyada qalması on iki min franka başa gəlir, onun illik gəliri isə təxminən on doqquz min frankdır.

"Berqhof"da keçirdiyi üçüncü həftənin sonuna doğru qəhrəman soyuqlayır. Onu müayinədən keçirən baş həkim Berens Hansın ağ ciyərində xırıltı, xışıltı eşitdiyini deyib, ona sanatoriyada qalıb müalicə olunmağı məsləhət görür.

***

Ertəsi gün Hans Kastorp yataq rejiminə keçir. Gün ərzində Yoaxim ona baş çəkir. Bir dəfə də Settembrini onu görməyə gəlir, Hansa buraların havasını götürməyən bir xanım haqda danışır. İtalyan humanisti onu sanatoriyadakı həyat tərzinə alışmaqdan, normal insanlar arasında keçirdiyi sağlam həyatı yadırğamaqdan çəkindirməyə çalışır.

Üç həftədən sonra Hansa yatağından qalxmaq icazəsi verilir. O, fröyleyn Engelhartdan öyrənir ki, axşamlar bir həmvətəni Klavdiyaya baş çəkir, doktor Berens isə qadının portreti üzərində işləyir. Hans özü də pasiyentlərdən birinin madam Şoşanı gözləriylə yediyini nəzərdən qaçırmır. Rentgenə növbə gözləyəndə Klavdiya Yoaximlə söhbətə girişir, Hans bunu uğurlu əlamət sayır. Oktyabrda qohumlarına yazır ki, xəstələndiyinə görə "Berqhof"da bir müddət qalmağa məcbur olub.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# Milli Kitabxanada İnsan Hüquqları Gününə həsr olunmuş sərgi...



Milli Kitabxanada "18 İyun - Azərbaycanda İnsan Hüquqları Günü" adlı virtual və ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub. Kitabxanadan bildirilib ki, sərgilərdə insan hüquqları haqqında beynəlxalq müqavilələr toplusu, insan hüquqları haqqında ümumi bəyannamə, Ümummilli Lider Heydər Əliyevin siyasihüquqi irsi: hüquqi dövlət və insan hüquqlarının təminatı, gender bərabərliyi, insan alverinə qarşı mübarizə, uşaq hüquqları, şəxsi və ailə həyatına hörmət hüququ ilə bağlı kitablar, dövri mətbuatda dərc edilən materiallar Azərbaycan və müxtəlif dillərdə nümayiş olunub.



# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Təkbaşına yazılan qəhrəmanlıq salnaməsi...

## Milli Qəhrəman Mübariz İbrahimovun anım günüdür...

19 iyun xalqımızın yaddaşına yalnız bir tarix kimi deyil, həm də Vətən sevgisinin, qorxmazlığın, sonsuz fədakarlığın və milli qürurun simvoluna çevrilmiş bir gün kimi həkk olunub. Məhz bu gün Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov öz həyatını doğma torpağın müdafiəsi naminə qurban verərək, xalqın qəlbində ölməzlik abidəsi ucaltdı. Milli Qəhrəmanımızın şəhidlik zirvəsinə ucalmasından 16 il ötür.

1988-ci il fevralın 7-də doğulan Mübariz İbrahimov Qarabağ müharibəsi ilə həmyaşıd idi. Qəhrəmanlıq ənənələri ruhunda böyüyən Mübariz orta təhsilini şəhid Malik Piriyev adına Biləsuvar rayonu Əliabad kənd orta məktəbində alıb. 2006-cı ilin yazında həqiqi hərbi xidmətə çağırılan gənc Mübariz Daxili Qoşunların "N" saylı hissəsinin xüsusi təyinatlı bölüyündə atıcı əsgər olub, həqiqi hərbi xidmətini çavuş rütbəsində başa vurub. 2009-cu ildə yenidən, bu dəfə gizir kimi orduda xidmətə başlayıb. Çox keçmədən öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birinə xidmətə göndərilib.

Onun şəxsi həyatı ailə, dostluq, vətənpərvərlik, səmimiyyət və mərdlik dəyərləri üzərində qurulmuşdu. Sadə, dostlarına və ətrafına daim kömək etməyə hazır insan kimi tanınıb. Ailə və şəxsi həyatında Mübariz hər zaman dürüst, saf və səmimi olub. Qəhrəman Mübariz bu gün də gənclər üçün örnəkdir.



### Sonuncu məktub...

2010-cu il iyunun 18-dən 19-na keçən gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında 22 yaşlı gizir Mübariz İbrahimov döyüş növbəsində olduğu vaxt düşmən tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində başlanan atışmada şəxsi rəşadət nümayiş etdirir. Təkbaşına təmas xəttinin bir kilometrlik minalanmış sahəsini keçir. Qəfil həmləsi ilə Ermənistan ordusunun çox sayda əsgər və zabitini məhv edir. Sonra isə düşmənin öz silahlarından onun özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşür. Düşməni çox ağır itkilərə məruz qoyur. Azərbaycan döyüşçüsü səhərə yaxın qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur.

Bu sətirlər Mübarizin evlərinə göndərdiyi son məktubundandır: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək düşmənin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Bu gün Mübariz İbrahimovun ruhu şaddır. Çünki onun qəhrəmanlığından ilham alan igid oğullarımız 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızı düşməndən azad edərək şanlı Qələbə qazandılar.

### Mübarizin şücaətinə verilmiş layiqli qiymət

Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə gizir Mübariz İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib, "Qızıl Ulduz" medalı, "Vətən övladı" qızıl ordeni ilə təltif edilib. O, həmçinin "Azərbaycanda ilin adamı" mükafatına layiq görülüb. İgid Mübarizin düşmən tərəfdə qalmış nəşi bir müddət sonra Ali Baş Komandanın qətiyyətli səyləri sayəsində alınaraq doğma Vətənə gətirilib.

Prezident İlham Əliyev qəhrəmanla vida mərasimindəki nitqində onun əbədiyyət yolçuluğunu yüksək qiymətləndirib: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir... Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar var... Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir".

### Ziyarətgaha çevrilmiş ev...

Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə doğulub boya-başa çatdığı Biləsuvar rayonunda lisey kompleksinə və küçələrdən birinə onun adı verilib.

15 ilə yaxındır ki, Əliabad kəndini Mübarizin kəndi adlandırırlar. Milli Qəhrəmanın ata evinin həyətində onun ev-muzeyi tikilib. Bura gələn hər kəs ondan xatirə qalmış əşyalarla, fotoguşəylə tanış olur, qəhrəmanın əziz xatirəsinə sonsuz ehtiramını bildirir.

### Vətənə sevginin təcəssümü...

Mübariz İbrahimovun adı Azərbaycan gəncləri üçün əbədi bir nümunə oldu. Onun adını daşıyan küçə, məktəb və parklar yaradıldı.

Mübariz İbrahimovun həyatı və irsi Azərbaycan xalqının yaddaşında və milli kimliyində əbədi yer alacaq. Onun adı gələcək nəsillər üçün həmişə Vətənə sədaqətin, mərdliyin və qəhrəmanlığın simvolu kimi yaşayacaq.

Mübariz İbrahimovun həyatı və qəhrəmanlığı Azərbaycan xalqının milli kimliyinin və Vətənə bağlılığının ən parlaq təcəssümüdür. Onun igidliyi təkcə bir fərdin deyil, bütün bir xalqın iradəsinin və gücünün göstəricisidir. Mübariz İbrahimovun adı gələcək nəsillər üçün vətənpərvərliyin, qəhrəmanlığın və əyilməzliyin simvolu olaraq daim yaşayacaq. Bizlər üçün Mübariz ölməyib. Hər bir şəhidimiz kimi Mübariz İbrahimov da əbədiyaşardır...

*Yeganə BAYRAMOVA*

# İstirahət vaxtıdır!

## Yayda harada dincələk?

### Azərbaycan və xaricdə qiymətlər...

İsti havalarda hər kəsi eyni sual düşündürməyə başlayır: bu il harada dincəlmək daha məqsədəuyğundur, doğma Azərbaycanın füsunkar guşələrində, yoxsa dünyanın başqa ölkələrində yeni yerlər kəşf edərək? Əslində, bu sualın vahid cavabı yoxdur, çünki ideal istirahət anlayışı hər bir insanın büdcəsindən, maraq dairəsindən, zaman imkanlarından və gözləntilərindən asılı olaraq dəyişir.

Yay turizmi bütün dünyada iqtisadi, sosial və mədəni inkişafın mühüm hərəkətverici qüvvələrindən biri hesab olunur. Son illər ölkəmizdə də yay turizmi sürətlə inkişaf edir. Azərbaycanın zəngin təbiəti, əlverişli coğrafi mövqeyi, qədim tarixi abidələri, milli mətbəxi və qonaqpərvər insanları həm yerli, həm də xarici turistlərin diqqətini özünə cəlb edir. Xüsusilə, dağlıq bölgələrdə yerləşən istirahət məkanları, dənizkənarı ərazilər və ekoturizm marşrutları böyük maraq doğurur.

Son zamanlar qlobal inflyasiya, hotellərdə qiymət artımı və başqa amillər ailəvi istirahət planlaşdıran insanları daha rasional seçimlər etməyə sövq edir. Xüsusilə, vizasız rejim tətbiq olunan, nəqliyyat baxımından əlçatan və gündəlik xərclərin aşağı olduğu istiqamətlər 2026-cı ilin yay mövsümündə daha çox maraq doğurur.

**Gürcüstan, Türkiyə, Rusiya...**

2026-cı ilin yay mövsümü üçün azbüdcəli ailələrə uyğun olan, həm region daxilində, həm də daha uzaq istiqamətlərdə yerləşən sərfəli ölkələrə, onların real xərclərinə və üstünlüklərinə diqqət yetirək:

Azərbaycanlı ailələr üçün ən əlçatan istiqamətlərdən biri yenə də Gürcüstandır. Coğrafi yaxınlıq, vizasız gediş-gəliş və qatarla Bakı-Tbilisi istiqamətində marşrut xəttinin yenidən istifadəyə verilməsi, münasib gündəlik xərclər bu ölkəni yay mövsümünün favoritlərindən birinə çevirib. Tbilisinin tarixi küçələri və Batuminin Qara dəniz sahili həm iqtisadi, həm də rahat istirahət imkanları təqdim edir. Gürcüstanda ailəvi qonaq evləri və 3 ulduzlu hotellərdə gecələmə qiymətləri orta hesabla 25-40 dollar, yəni 40-68 AZN arasında dəyişir. Şəhər mərkəzindən bir qədər uzaqda isə daha ucuz seçimlər tapmaq mümkündür. Restoranlarda 3-4 nəfərlik ailə naharı təxminən 15-25 dollara, yəni 25-45 manat arası başa gəlir. Şəhərdaxili nəqliyyat isə olduqca ucuzdur. Yol xərcləri nəzərə alınmadan, 4 nəfərlik ailə gündəlik təxminən 60-90 dollar, yəni 100-150 AZN büdcə ilə rahat şəkildə istirahət edə bilir.

Türkiyə də ənənəvi olaraq azərbaycanlı ailələrin ən çox üz tutduğu istiqamətlərdən biridir. Antalya, Alanya və Bodrum kimi məşhur kurortlar ilk baxışda baha görünsə də, erkən rezervasiya və alternativ yerləşmə variantları sayəsində hələ də büdcəyə uyğun hesab olunur. 3 ulduzlu hotellər və ailəvi pansiyonlarda gecələmə qiymətləri 25-50 avro, yəni 49-98 AZN arasında dəyişir. "Hər şey daxil" sistemli hotellərdə isə qiymətlər gecəlik 80-150 avroya, yəni 157-295 manata qədər yüksəlir. Yerli "lokanta"larda və küçə yeməkləri ilə qidalandıqda adambaşına gündəlik yemək xərci təxminən 30 manat təşkil edir. Aviabiletlər öncədən alındıqda Türkiyədə 1 həftəlik ailəvi istirahət orta hesabla 800-1200 avroya, yəni 1577-2366 manata başa gəlir.



Son illər azərbaycanlı turistlərin diqqətini çəkən digər istiqamət isə Rusiyanın Dağıstan və Mineralnıye Vodı bölgələridir. Xəzər dənizi sahilində yerləşən Dərbənd və Mahaçqala, eləcə də Kislovodsk və Yessentuki kimi termal kurort şəhərləri həm yaxınlığı, həm də münasib qiymətləri ilə seçilir. Bu bölgələrdə ailəvi mənzillərin və ya 3 ulduzlu hotellərin günlük qiyməti 30-50 dollar, yəni 51-85 AZN arasında dəyişir. Qafqaz mətbəxinin geniş yayıldığı regionda gündəlik ailəvi qidalanma xərci isə orta hesabla 25-35 dollar, yəni 42-59 AZN təşkil edir.

**Azərbaycanda istirahət etmək istəyənlər...**

Yay mövsümündə Azərbaycanda da münasib büdcə ilə həm təbiət, həm dəniz, həm də istirahət zonasından zövq almaq mümkündür. Ölkə daxilindəki otellər həm komfort, həm də qiymət baxımından geniş seçim imkanı yaradır. Azərbaycanın müxtəlif bölgələrində yerləşən otellər bu mövsüm üçün maraqlı seçimlər və müxtəlif büdcələrə uyğun qiymətlər təklif edir.

"Quba Palace" otel - Qiymətlər 395 manatdan başlayır. İki nəfərlik otağa səhər və axşam yeməkləri daxildir.

"Mountain Breeze" otel - İki nəfərlik kotec 165 manat, dörd nəfərlik kotec isə 250 manat təşkil edir.

Şəki "Marxal" otel - İki nəfərlik otaq 190 manatdan başlayır. Qiymətə səhər yeməyi daxildir.

"Sheki Park" otel - İki nəfərlik otaq 100 manat, dörd nəfərlik isə 150 manatdır.

"Shamakhi Palace" otel - İki nəfərlik otaq üçün:

Səhər yeməyi ilə - 238 manat

Səhər və axşam yeməyi ilə - 267 manat

Üç dəfə qidalanma ilə - 297 manat

"Göyqurşağı" otel (Şamaxı) - İki nəfərlik otaq 70 manat, dörd nəfərlik otaq 100 manatdır.

"Qafqaz Riverside" (Qəbələ) - İki nəfərlik otaq 298 manat.

"Qafqaz Tufandağ" otel - Qiymətlər 389 manatdan başlayır.

"Nohurgöl" otel - Otaq qiymətləri 180 manatdan başlayır.

"Shabran" otel - İki nəfərlik otaq 190 manatdır.

"Qalaaltı" otel - Qiymətlər 210 manatdan başlayır.

"İlisu" otel (Qax) - İki nəfərlik otaq 80 manat təşkil edir.

"Hilltop Heaven" otel - İki nəfərlik otaq 100 manatdır.

"Lənkəran Springs" otel - İki nəfərlik otaq 260 manat, üç dəfə qidalanma daxil olarsa, 370 manat.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5355
Sifariş: 791
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova